


**“Ana dilimizin zənginləşdirilməsi istiqamətində mühüm işlər görülür”**

11

№ 135 (6576) **2 avqust** 2022-ci il. **Qiymәti 60 qәpik**

# Şəhid ailələrinin və qazilərin problemləri diqqət mərkəzindədir!



5



# Yenidən Kosovo

Növbəti Balkan müharibəsində əsl hədəf kimdir?

6




## “Öhdəliklərin tam icrası vacibdir”

3



## Qlobal böhrandan qoruyan BALANSLAŞDIRILMIŞ İQTİSADİ YANAŞMA

4

## Kiber cinayətkarlardan özümüzü necə qorumalıyıq?



8



## 124 yaşlı Azərbaycan kinosu tarixi yolda

10

## Bundesliqanın ən yaxşısı bu futbolçu seçildi



Futbol üzrə Almaniya Bundesliqasında 2021/22 mövsümünün ən yaxşı futbolçusu adına aydınlıq gəlib. Qol.az xəbər verir ki, ”Kicker” nəşri tərəfindən...

16



## “Səbrimiz tükənmək üzrədir”

9

## Azərbaycanda insanlar ən çox nədən zəhərlənir?



# Müasir səhiyyə ocaqlarımız

## *İlham Əliyev: "İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var"*

Azərbaycanda əhalinin sağlamlığı dövlət siyasətinin mərkəzində dayanan məsələlərdən biridir. Səhiyyə sistemində aparılan uğurlu islahatlar nəticəsində tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Müxtəlif səhiyyə müəssisələrinin, o cümlədən xəstəxanaların, müalicə-diaqnostika, reabilitasiya mərkəzlərinin, poliklinikaların inşası həyata keçirilib, səhiyyə ocaqları əsaslı təmir olunub və lazımi avadanlıqla təmin edilib. Bu gün Azərbaycanda səhiyyənin inkişafı istər yeni tibb ocaqlarının inşasında, istər mövcud xəstəxana və tibb mərkəzlərinin bərpasında, istərsə də tibb müəssisələrinin ən müasir avadanlıqla təchiz edilməsində özünü daha qabarıq büruzu verir. Bütün bunlar sübut edir ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi istiqamətində icra olunan layihələri Azərbaycan Prezidenti İlham Əliyev daim nəzarətdə saxlayır. Bu layihələr, eyni zamanda, vətəndaşlarımızın məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanması ilə bağlı görülən mühüm işlərin davamlı olduğunu göstərir.








### GENEFONDUMUZUN QORUNMASINA YÖNƏLƏN LAYİHƏLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmaları dövlətimizin ölkəmizdə səhiyyə sisteminin inkişafına, maddi-texniki bazasının gücləndirilməsinə və infrastrukturun yenilənməsinə ayrılan diqqətin bariz nümunəsidir. 2 nömrəli doğum evi 1987-ci ildə istifadəyə verilib və uzunmüddətli istismar nəticəsində bu tibb müəssisəsində əsaslı təmirə ehtiyac yarandığından dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə 2 nömrəli doğum evinin əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılıb. Əsaslı şəkildə təmir edilən 120 çarpayılıq bu səhiyyə müəssisəsində ən müasir tələblərə uyğun tibbi avadanlıqlar quraşdırılıb. Burada vətəndaşlara həm ambulator, həm də stasionar xidmət göstəriləcək. Əlbəttə ki, Azərbaycanda yeni tikilən səhiyyə ocaqları, ölkəmizə gətirilən müasir tibbi avadanlıqlar əhalinin sağlamlığının qorunmasına yönəldilib. Bu prosesdə Heydər Əliyev Fondunun da misilsiz xidmətləri var. Bütövlükdə əhalinin, xüsusən də, ana və uşaqların sağlamlığının qorunması Fondun fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genefondumuzun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlib. Bu doğum evinin əsaslı şəkildə yenidən qurulması da ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin daha bir əyani təsdiqidir. "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı" çərçivəsində mütəmadi olaraq ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinin, xüsusən neonatoloji reanimasion şöbələrin maddi-texniki bazası ilbəil gücləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb. Prezident İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "İnsanların sağlamlığı ən vacib məsələdir. Bu gün statistikaya, Dünya Səhiyyə Təşkilatının hesablamalarında Azərbaycanın artan reytinqinə baxdıqda görürük ki, bu sahədə çox yaxşı nəticələr var. Azərbaycanda insanların ömrünün uzunluğu artır, körpə-ana ölümü azalır".

Ölkənin dinamik iqtisadi inkişafı demoqrafik və tibbi statistik göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. Son illərin ölüm göstəricisi azalmış, doğum və bununla bərabər təbii artım göstəricisi yüksəlmişdir. Bu göstəricilərə görə Azərbaycan Avropa ölkələri sırasında öndə gedir.

### AZƏRBAYCAN SƏHİYYƏSİ QLOBAL DƏYİŞİKLİKLƏRƏ CAVAB VERƏN SAHƏYƏ ÇEVRİLİB

Azərbaycanda həyata keçirilən sosial siyasət nəticəsində müşahidə olunan uğurlu inkişaf həyatımızın hər bir sahəsini əhatə etdiyi kimi, bu inkişaf əhalinin sağlamlığının qorunması kimi vacib bir sahədən də yan keçməyib. Səhiyyəyə diqqət və qayğının artırılması Azərbaycanın səhiyyə sistemini dövrlə ayaqlaşan, qlobal dəyişikliklərə cavab verən və tərəqqi edən bir sahəyə çevirməkdədir. Ölkədə səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş 10-dan artıq dövlət proqramının uğurlu icrasına nail olunub və bu davam etməkdədir. "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərə qarşı mübarizəyə dair 2015-2020-ci illər üzrə Strategiya"sı "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" və s. insan həyatı və sağlamlığına zərbə vura biləcək halların qarşısının alınmasında əhəmiyyət kəsb edib. Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün, siyasi sabitliyinin təzahürüdür.

Məlum olduğu kimi, ölkəmizdə açıq ürək, böyrəkköçürmə əməliyyatlarının keçirilməsi səhiyyəmizin uğurlu inkişafını şərtləndirən amillərdir. Əlbəttə ki, bu əməliyyatların ölkə daxilində aparılması, səhiyyəmizin inkişafına söykənir. Ölkəmizdə talassemiyalı və hemofiliyalı xəstələrin müalicəsində müsbət nəticələr əldə edilmişdir. Hazırda tibb müəssisələrinin və xəstələrin donor qanına olan ehtiyacı tam ödənilir.

### İCBARİ TİBBİ SIĞORTANIN TƏTBİQİ NEQATİV HALLARI ARADAN QALDIRDI

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırıb. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Bu layihənin məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir.

İcbari tibbi sığortanın baza zərfinə daxil edilən həyati vacib, dəyəri yüksək tibbi xidmətlər müəyyənləşdirilərkən ölüm səbəbləri arasında öndə gedən xəstəliklər nəzərə alınıb. Belə ki, qapalı və açıq ürək əməliyyatları, o cümlədən stend qoyulması, damar əməliyyatları sığorta paketinə daxil edilib, çünki ürək-damar xəstəlikləri ölüm səbəbləri arasında yüksək yer tutur. Ödənişsiz tibbi xidmətlərlə təmin edilmiş əhalinin səhiyyə xərcləri ilə bağlı maliyyə yükü xeyli azaldılıb və baza zərfi çərçivəsində əhali tərəfindən birbaşa çəkilən xərclər 100 faiz həcmində aradan qaldırılıb.

İcbari sığortanın tətbiq edilməsi səhiyyənin maliyyələşdirmə bazasını dəyişməklə bu sahədəki neqativ halların aradan qaldırılmasına səbəb olub. Bu, vətəndaşların səhiyyə xərclərinin azalması səbəbindən pullarına qənaət etməsinə və o cümlədən az təminatlı və ya işsiz statusu olan insanların səhiyyə xidmətindən yararlanmasına imkan yaradıb. Əlbəttə ki, icbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyevin sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin maliyyə imkanlarının çoxalması və həyata keçirilən siyasi kurs dövlət büdcəsindən səhiyyəyə ayrılan maliyyə vəsaitinin artmasına imkan verir və Azərbaycan səhiyyəsində bir sıra işlərin keyfiyyətlə həyata keçirilməsinə şərait yaradır. Bütün bunlar gələcəyin təminatı olan insan faktorunun daim diqqətdə olduğunu, onların fiziki cəhətdən sağlam və gümrahlığının diqqətdə saxlanıldığını göstərir. "İnsan sağlamlığı sosial məsələlər arasında ən birinci yerdədir və bu gün Azərbaycanda bu sahədə gözəl nəticələr var", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

**Ölkənin sürətli inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, insanlara qayğı və diqqəti artırmaq, tapşırılan işə məsuliyyət hissini artırmaq və bütün sahələrdə səmərəli islahatlar həyata keçirmək dövrün tələbidir və bu tələb hökumətin, hər bir dövlət məmurunun, vəzifəli şəxsin vəzifəsidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**



# "Prezidentin qarşıya qoyduğu tələblər çox əhəmiyyətlidir"

Komitə sədri xüsusilə vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Masallı, Lerik və Göygöl rayon icra hakimiyyətləri başçılarının vəzifələrinə təyin olunması ilə əlaqədar qəbulu zamanı çıxışında bu məqamları bir daha gündəmə gətirib, son illər qəbul olunmuş dövlət proqramlarının, mühüm layihələrin, həyata keçirilən əməli tədbirlərin məhz bu istiqamətə yönəldildiyini bildiribdir.

"Əlbəttə ki, 2003-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla və sistemli şəkildə həyata keçirilməsi, bu gün də davam etdirilməsi şəhər və kəndlərimizin simasının tamamilə dəyişdirilməsinə, regionların mədəniləşməsinə təkan vermiş və əhalinin həyat şəraitinin yaxşılaşmasında mühüm rol oynamışdır. Elektrik enerjisi ilə bağlı təchizatın yaxşılaşdırılması, qazlaşmanın sürətləndirilməsi, yol infrastrukturu, suvarma, içməli su layihələri, sosial layihələr uğurla icra olundu. Regionlarda çoxsaylı müasir yeni məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilib istifadəyə verildi, geniş tikinti-quruculuq işləri görüldü, sahibkarlığın inkişafına böyük önəm verildi, yeni iş yerləri yaradıldı. Əlbəttə ki, bu layihələr bu gün də davam etdirilir. Sözsüz ki, bu uğurların əldə edilməsində icra orqanlarının da əməyi böyükdür.

Son illər idarəetmədə aparılan mühüm islahatlar və ölkə rəhbərinin icra orqanlarının qarşısında qoyduğu tələblər bu uğurları yüksəltməyə zəmin yaradır. Ona görə də Prezidentimiz öz çıxışında icra başçıları qarşısında insanlarla daim təmasda olmaq, onlara qayğı və diqqəti artırmaq, onlara diqqətlə yanaşmaq, sosial ədalət prinsipinə əməl etmək, şəhid ailələrinə, qazilərimizə ehtiramla yanaşmaq, onların xahişlərini vaxtında yerinə yetirmək, sahibkarlara dəstək vermək, neqativ hallardan uzaq olmaq, ictimai nəzarəti gücləndirmək kimi çox mühüm tələblər qoydu və bu tələblərin yerinə yetiriləcəyinə əmin olduğunu bildirdi. Ölkə rəhbərimizin qarşıya qoyduğuğ tələblər ilk növbədə insanların firavanlığı, sosial həyatı, zəmiyyətimizə zidd halların qarşısının alınması üçün çox əhəmiyyətlidir və əlbəttə ki, bu gələcək inkişafımıza, Azərbaycanın yüksəlişinə xidmət edir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

## Rəsmi xronika

Prezident İlham Əliyev Ucar rayonunun Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 555-VIQD nömrəli Qanununun tətbiqi və "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

## "Öhdəliklərin tam icrası vacibdir"

**Ceyhun Bayramov ilə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub**




Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, tərəflər Azərbaycan ilə Ermənistan arasında münaqişə sonrası münasibətlərin normallaşdırılması prosesinin mövcud durumu, Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanatların, eləcə də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında ikitərəfli görüşlər nəticəsində bəyanatların icrası məsələləri barədə fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov bölgədə sülh və tərəqqinin təmin edilməsi, o cümlədən nəqliyyat və kommunikasiyaların açılışı, iki dövlətin sərhədinin delimitasiyası, gələcək sülh müqaviləsi üzrə işə başlanılması zəruriliyi ilə bağlı Azərbaycanın məlum mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

C.Bayramov tərəflərin öhdəliklərinin tam icrasının vacibliyini qeyd edib. Bu xüsusda 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə zidd olaraq indiyə qədər erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığı və bunun qəbuledilməzliyi vurğulanıb. Telefon danışığı zamanı Azərbaycanla Ermənistan arasında normallaşma prosesi üzrə növbəti addımlar, regional gündəlikdə duran məsələlər, həmçinin qarşılıqlı maraq doğuran digər mövzular müzakirə edilib.

# Baş nazir Əli Əsədov İranın Birinci vitse-prezidentinə başsağlığı verib



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İran İslam Respublikasının Birinci vitse-prezidenti Məhəmməd Moxberə başsağlığı məktubu ünvanlayıb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov İranda baş vermiş təbii fəlakət nəticəsində böyük insan tələfatı və dağıntılar barədə xəbərdən kədərləndiyini bildirib, faciə ilə əlaqədar M.Moxberə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralananlara və xəsarət alanlara şəfa diləyib.

# "İslahatlar daha da genişlənir və dərinləşir"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idrəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında " imzaladığı Fərman bir daha göstərir ki, cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar daha da genişlənir və dərinləşir. Bu Fərmana əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi Elm və Təhsil Naziriyi adlandırılır və Təhsil Nazirliyinin nəzdində müvafiq Dövlət Agentliklərinin yaradılması nəzərdə tutulmuşdur. Elm və Təhsil sahəsi bir-biri ilə sıx əlaqədə olan sahələrdir. Bu sahələrin vahid bir Nazirlikdə birləşdirilərək idarə olunması böyük əhəmiyyətə malikdir.



*Rauf Əliyev, Milli Məclisin deputatı*

Dövlət siyasətinin əsas istiqamətlərindən biri də elm və təhsil sahəsinə göstərilən qayğının ardıcıl davam etdirilməsidir. Belə ki, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar bu sahədə görülən işlərin davamlığına dəlalət edir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Elm və Təhsil Nazirliyinin yaradılması bu sahədə yeni bir mərhələdir. Fərmana əsasən, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər nazirliyə həvalə edilib. Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra elmi müəssisə və təşkilatları yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib. AMEA bir sıra humanitar yönümlü elmi müəssisələri ilə öz fəaliyyətini yeni inkişaf prioritetləri ilə davam etdirəcək. Müasir dövrün çağırışlarına uyğun olaraq, elm və təhsilin səmərəliliyinin daha da artırılması, ölkənin digər elm müəssisələrində və ali məktəblərində aparılan fundamental və tətbiqi araşdırmaların əlaqələndirilməsi, onların nəticələrinin sosial-iqtisadi və digər sahələrdə tətbiqi önəmli məsələlərdəndir. Dövrün tələbinə uyğun olaraq həyata keçirilən tədbirlər, dövlət başçısı tərəfindən imzalanan sərəncam və fərmanlar elmin və təhsilin inkişafında böyük əhəmiyyətə malikdir.

Elm sahəsində dövlət siyasətinin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlərin Elm və Təhsil Nazirliyinə həvalə edilməsi müasir tələblərə uyğun inkişaf strategiyasının və təşkilati strukturunun formalaşdırılmasını tələb edir. Sözügedən Fərman Azərbaycanda elm və təhsilin inteqrasiyasına, intellektual potensialın daha da artırılmasına və nəticə etibarilə Azərbaycanda elm və təhsil daha da inkişaf etdirilməsinə şərait yaradacaq.

# Qlobal böhrandan qoruyan

## BALANSLAŞDIRILMIŞ İQTİSADİ YANAŞMA

**Beynəlxalq aləmdə baş verən siyasi hadisələr, daha dəqiq desək, gərginlik qlobal iqtisadiyyata da öz təsirlərini göstərir və biz bunu mütəmadi olaraq müşahidə edirik. Ələlxüsus, siyasi gərginliyin bütövlükdə dünya bazarlarında balansın pozulmasına gətirib çıxardığını da görməkdəyik və bunun təsirləri də sözsüz ki, danılmazdır.**

Heç kim üçün sirr deyil ki, qlobal iqtisadiyyatda tənəzzül riskləri hələ də artmaqdadır. Proqnozlar da cari il, 2022-ci il və gələn il, 2023-cü il üçün yaxşı heç nə vəd etmir. Məsələn, 2022-ci ilin çətin il olduğunu artıq etiraf edən Beynəlxalq Valyuta Fondu (BVF), gələn ilin, 2023-cü ilin qlobal iqtisadiyyat üçün daha çətin il olacağını indidən proqnozlaşdırır. Beynəlxalq Valyuta Fondunun (BVF) cari ilin aprel ayında yenilədiyi iqtisadi artım proqnozunun 4,4 faizdən 3,6 faizə endirilməsi sadalananları təsdiq edir və beynəlxalq maliyyə institutlarının, reytinq agentliklərinin və investisiya banklarının proqnozlarının əksəriyyətinin pisləşməsi də səbəbsiz deyil.



İqtisadi tənəzzülün yalnız qlobal tendensiyalarla bağlı olmadığı da bir reallıqdır və aparılan yanlış iqtisadi siyasətin vəziyyəti daha da gərginləşdirə biləcəyi də danılmazdır. Bir sözlə, yanlış iqtisadi siyasət öz mənfi təsirlərini göstərməkdə davam edə bilər və ələlxüsus qlobal böhranın olduğu şəraitdə bu təsirlərin daha da artacağına zərrə qədər şübhə yoxdur. Sözsüz ki, bunun əksini balanslaşdırılmış iqtisadi siyasət yürüdüldüyü təqdirdə söyləmək olar. Belə ki, hər bir ölkədə aparılan balanslaşdırılmış iqtisadi siyasət məhz xarici amillərin təsirini minimuma endirir və iqtisadi artım proqnozunun aşağı düşməsinin qarşısını alır. Azərbaycan məhz belə bir ölkə hesab olunur və balanslaşdırılmış iqtisadi siyasət sayəsində ölkəmizdə geriləmənin qarşısı alınır, böhran müşahidə edilmir, əksinə daha yaxşı nəticələrə ümid edilir.




Şübhəsiz ki, qlobal böhran dedikdə hər kəs dərhal COVİD-19 pandemiyası və onun mənfi təsirlərini düşünür və haqlıdır da, çünki pandemiyanın qlobal iqtisadiyyata vurduğu zərəri təkzib etmək olmaz. Bir çox dünya ölkələri, hətta inkişaf etmiş ölkələr belə iqtisadi baxımdan pandemiyanın mənfi təsirlərinə məruz qalıb və bu, bir reallıqdır. Sevindirici məqam odur ki, Azərbaycan COVİD-19 pandemiyasından üzü ağ çıxdı və onun mənfi təsirləri ölkəmizdə minimuma endirildi, çünki balanslaşdırılmış iqtisadi yanaşma tətbiq olundu. Pandemiyadan əlavə, Azərbaycan yeni bir sınaqdan, İkinci Qarabağ müharibəsindən də üzü ağ çıxdı və hazırda işğaldan azad etdiyimiz torpaqlarımızda quruculuq abadlıq işlərinin aparılması, özü də bu işlərin ölkəmizin daxili resursları hesabına görülməsi deyilənləri təsdiq edir. Təsdiq edir ki, Azərbaycan iqtisadi cəhətdən də güclü ölkədir və qlobal böhran riskinin fonunda iqtisdi inkişaf uğurla davam etdirilir.

Dünyada baş verənlərin, ələlxüsus qlobal iqtisadi böhranın fonunda, tənəzzül müşahidə edildiyi halda, Azərbaycanda makroiqtisadi göstəricilərin yüksəlməsi çox sevindirici, eləcə də qürurverici haldır. Bu reallıq, yəni makroiqtisadi göstəricilərin yüksəlməsi isə onu deməyə əsas verir ki, yarana biləcək istənilən iqtisadi böhrana qarşı ölkəmizdə uyğunlaşma var və hətta iqtisadi immun sistemi belə mövcuddur. Sözsüz ki, bu məqam stabillik və balanslaşdırılmı iqtisadi sistemin məntiqi nəticəsi olaraq təzahür edir.

Təbii ki, bu arada inflyasiyanın olduğunu da təkzib etmək mümkün deyil, amma qeyd etmək və nəzərə almaq lazımdır ki, ölkəmizdə inflyasiya yalnız xarici amillərin təsiri ilə, daha dəqiq desək, idxalla bağlı olaraq ortaya çıxıb. Sözsüz ki, xarici amillərin təsiri dedikdə, ölkəmizə idxal olunan malların dəyərinin, qiymətinin qalxması nəzərdə tutulur. Unutmaq lazım deyil ki, dünyada iqtisadi durğunluq şəraitində qiymətlərin, ölkəmizə idxal olunan malların qiymətlərinin də bahalaşması gözlənilən idi, hansı ki, nəticə etibarı ilə inflyasiyaya səbəb olurdu və buna idxal inflyasiyası da deyilir. Bu gün ölkəmizdə müşahidə olunan inflyasiya məhz idxal inflyasiyasıdır və yalnız xarici amillərin təsirindən, qlobal böhrandan qaynaqlanır.

Qlobal iqtisadi böhran, tənəzzül fonunda Azərbaycanın öz iqtisadi inkişafını təmin etməsi, çox böyük layihələri reallaşdırması, iqtisadi baxımdan bütün vəzifələrin öhdəsindən layiqincə gəlməsi təqdirəlayiqdir. Ölkəmizin iqtisadi vəziyyətinin qənaətbəxş olması, inkişafı, sözsüz ki, uğurlu islahatlar, şəffaflıq və hesabatlılıq ilə birbaşa əlaqədardır və eləcə də balanslaşdırılmış iqtisadi sistemin olduğundan xəbər verir. Təsadüfi deyil ki, Azərbaycan, COVİD-19, eləcə də İkinci Qarabağ savaşı olmaqla bir-birinin ardınca sınaqlardan layiqincə çıxdı və indi də işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini öz vəsaitləri hesabına uğurla davam etdirir. Bütün dünya ictimaiyyəti görür ki, ölkəmiz bu işlərin öhdəsindən layiqincə gəlir və bu da o deməkdir ki, Azərbaycanın iqtisadi potensialı var. Əgər iqtisadi potensial olmasaydı bütün bunları reallaşdırmaq mümkün olmazdı. Bu gün bizim işğaldan azad edilən ərazilərimizdə infrastruktur layihələri uğurla icra edilirsə, deməli, Azərbaycan bu işin öhdəsindən gəlmək əzmindədir və buna qadirdir. Təbii ki, burada iqtisadi imkanlar əsas şərt hesab olunur.



Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə öz ptensialı ilə apardığı quruculuq, hətta yenidənqurma işləri xarici investisiyaların cəlb edilməsinə əsaslı zəmin yaradır. Təbii ki, infrastrukturun qurulması, yenilənməsi, bir sıra layihələrin reallaşdırılması da öz növbəsində xarici investisiyaların cəlb edilməsi üçün şərtdir. Onu da unutmaq lazım deyil ki, xarici investisiyaların cəlbi isə, ölkəmiz üçün böyük iqtisadi dividentlər deməkdir. Artıq investisiyalar üçün əlverişli, münbit şərait var və ən tez zamanda xarici investisiyaların cəlb ediləcəyi gözlənilməndir.

Doğrudur, xarici investisiyaların cəlb edilməsi iqtisadi dividentlər deməkdir, amma Azərbaycanın özünün də real imkanları, potensialı kifayət qədərdir. Bu gün Azərbaycan 55 mlrd. dollarlıq qızıl-valyuta ehtiyatlarına sahibdir, ÜDM artımı kifayət qədərdir. Ölkə iqtisadiyyatı davamlı inkişaf edir, daha dəqiq desək, Azərbaycan iqtisadiyyatının minimum artım tempi ildə 4,5-5% təşkil edir. Təkcə neft sektoru deyil, qeyri-neft sektorunda da artım var və məlumat üçün qeyd edək ki, 2022-ci ilin əvvəlindən bu sektordan daxilolmalar ümumi gəlirlərin 60%-i həddindədir. Bir sözlə, Azərbaycan istənilən böhrana hazırlıqlı ölkədir və istənilən halın öhdəsindən gəlmək bizim üçün digər ölkələrlə müqaisədə daha asan olmalıdır, çünki bunun üçün maliyyə resurslarımız belə kifayət qədərdir. Eyni zamanda, ölkəmizdə biznesin liberallaşdırılması məşğulluğun artmasına əsaslı zəmin yaradır və ölkədə iqtisadi fəallığın qənaətbəxş səviyyədə saxlanması üçün vacib şərt hesab olunur. Bütün bunlar isə, ölkəmizdə təbii ki, qlobal böhrandan qoruyan balanslaşdırılmış iqtisadi yanaşmanın olduğundan xəbər verir və əminlik yaradır ki, Azərbaycan istənilən böhrana hazırlıqlı ölkədir.

***İnam Hacıyev***

# Şəhid ailələrinin və qazilərin problemləri diqqət mərkəzindədir!

Bu gün hər kəsə bəllidir ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin, müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçulara, erməni hərbi təxribatı nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlara, şəhidlik zirvəsinə ucalan hər bir şəhidin ailəsinə, qazilərimizə diqqət və qayğısını heç zaman əsirgəməmişdir. Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır. Şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir və ilbəil artmaqdadır.Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin bu təbəqədən olan insanlara göstərdiyi qayğı, bu istiqamətdə yürütdüyü dövlət siyasəti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər kəsə yaxşı məlumdur ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.

Bu gün Qarabağ müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlarına Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də yüksək diqqət və qayğı göstərilir. Bu istiqamətdə görülən diqqətəlayiq işlər, şəhid ailələrinə yüksək qayğı dediklərimizi əyani şəkildə sübut edir. Prezident İlham Əliyev hər zaman şəhid ailələri və müharibə iştirakçıları ilə görüşlərində qeyd edib ki, dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək: "Bütün məsələlərdə bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur".

Dövlət başçısı onu da vurğulayıb ki, bu işdə dövlət məmurları birlik, həmrəylik göstərməlidir: "Bizim əsas borcumuz erməniləri torpaqlarımızdan qovmaq idi və Mahir kimi övladlarımız buna nail oldular. İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var. Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Məşğulluqla bağlı. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək...".



## "BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİNİN ŞƏHİDLƏRİNİN AİLƏLƏRİNƏ BU GÜNƏ QƏDƏR 12 MİNDƏN ÇOX MƏNZİL VERİLİB"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial qayğıya ehtiyacı olan vətəndaşları hər zaman xüsusi nəzarətdə saxlayıb. Bakının Sabunçu rayonunda şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksinin açılışı bu reallığın təsdiqidir. Şəhid və qazi ailələrinin sosial təminatının yaxşılaşdırılması üçün dövlət bütün gücünü səfərbər edib. Həm Birinci, həm də İkinci Qarabağ müharibələri zamanı şəhid olmuş qəhrəman zabit və əsgərlərin ailələrinin mənzil təminatının, həmçinin qazilərin sosial vəziyyətinin yaxşılaşdırılması, eyni zamanda, müharibədə qəhrəmanlıqla döyüşmüş və qazi adı qazanmış veteranların avtomobillərlə təmin olunması üçün ölkədə bir çox sosial layihələr həyata keçirilib. Bu gün də belə sosial layihələr dövlət tərəfindən uğurla davam etdirilir.



"Əlbəttə, biz bütün şəhidlərimizin ailələrinin məişət problemlərini həll etməyə çalışırıq və çalışacağıq. Bu, bizim borcumuzdur,-deyən dövlət başçısı vurğulayaraq bildirib ki, Prezident kimi mənim və dövlətimizin borcudur: "Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ailələrinə bu günə qədər 12 mindən çox mənzil verilib. Bu, yenə də bizim borcumuzdur. Əsas təsəlli odur ki, o, əbədiyyətə qovuşub, şəhadət zirvəsinə qovuşub. Bu dünyada heç kim əbədi qalmayacaq, hamımız gec-tez haqq dünyasına qovuşacağıq. Əlbəttə ki, gənc yaşında həyatdan getmək böyük faciədir, ancaq nə deyə bilərik. Yeganə təsəlli odur ki, o, Vətən uğrunda döyüşüb, vuruşub, həlak olub və eyni zamanda, onun qanı yerdə qalmayıb. O, oktyabrın 19-da rəhmətə getmişdir. Artıq Füzuli şəhəri işğaldan azad edilmişdir. Ondan sonra onun yoldaşları müzəffər yürüşünü axıra qədər davam etdirərək bayrağımızı Şuşada sancdılar, düşməni qovduq və haqq-ədaləti bərpa etdik... İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Bir daha demək istəyirəm, həm Aprel döyüşləri zamanı, həm İkinci Qarabağ müharibəsində Mahir əsl vətənpərvərlik göstərmişdir. İndi onun xatirəsini yaşatmaq, onun övladını dəyərli vətəndaş kimi böyütmək yəqin ki, sizin üçün əsas məsələdir. Dövlət üçün də əsas məsələdir".

## "BÜTÜN DÖVLƏT MƏMURLARI ŞƏHİD AİLƏLƏRİ İLƏ BİR YERDƏ OLMALI, ONLARA KÖMƏK GÖSTƏRMƏLİDİRLƏR"

Prezidentin qeyd etdiyi kimi, "bütün məsələlərdə bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur". Dövlətimizin başçısı çıxışlarında daima qeyd edib ki, bizim əsas borcumuz erməniləri torpaqlarımızdan qovmaq idi və buna nail olduq. İndi isə şəhidlərimizin yaxınlarına diqqət göstərmək hər bir dövlət məmurunun borcudur və cəmiyyətdə bu məsələ ilə bağlı tam həmrəylik var: "Nəinki dövlət qurumları, istənilən insan çalışır ki, şəhid ailəsinə hansısa bir kömək göstərsin. Bizim qazilərimiz də çox olub. On mindən çox yaralı əsgər-zabitimiz olub. Onların da sağalması prosesi gedir. Onlar üçün artıq son model olan iki yüz protez təşkil edilib və onlar normal həyata qayıdıblar. Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək".

## "ONLAR BU TORPAQ ÜÇÜN HƏLAK OLDULAR, VƏTƏNİ HƏR ŞEYDƏN ÜSTÜN TUTDULAR"

"Biz Birinci Qarabağ müharibəsini də heç vaxt unutmamalıyıq, şəhidləri unutmamalıyıq. O vaxt onlar şəhid oldular, amma torpaqlar da getdi. Bu dəfə şəhid oldular, amma torpaqlar qayıtdı. Fərq budur və təsəlli bu ola bilər",-deyən dövlət başçımız qeyd edib ki, yaxın, doğma adamın itirilməsinin yarası heç vaxt sağalmayacaq. Amma həyat davam edir və davam edəcək: "İndi torpaqların yenidən qurulması işinə start vermişik. Azad edilmiş torpaqlarda, indi yaradılan binalarda, evlərdə, məktəblərdə, xəstəxanalarda, o binaların hər bir daşında şəhidlərimizin əbədi təsviri həkk olunub. Onlar bu torpaq üçün həlak oldular, Vətəni hər şeydən üstün tutdular. Dövlət də şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək".

"Qələbə parkında hər bir şəhidin adı yazılıb. Zəfər muzeyi də yaradılacaq" - dövlət başçısı çıxışı zamanı söyləyib. "Zəfər parkı Bakının ən möhtəşəm yerlərinin birində, bəlkə də birincisində - Dənizkənarı bulvarın önündədir. Orada böyük xatirə kompleksi inşa ediləcək. İşlərə yaxın zamanlarda start veriləcək. Hər şəhidin adı orada həkk olunacaq. Azad edilmiş bütün şəhərlərdə, hər bir şəhərdə Zəfər muzeyi, İşğal muzeyi yaradılacaq. Yəni, bütün şəhidlərimizin adı əbədi yaşayacaq. O sevinci onlar bizə bəxş etdilər", - deyə Azərbaycan Prezidenti vurğulayıb. Bəli, dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Və ölkə başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi. Bu gün ölkə Prezidentinin həyata keçirdiyi uğurlu sosial siyasəti bunun sübutudur. Bir sözlə, bütün bu uğurlu işlər onu göstərir ki, dövlət Vətən Müharibəsi Qəhrəmanlarına, şəhid ailə üzvlərinin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq.

**_RƏFİQƏ HÜSEYNOVA_**



# Yenidən Kosovo

## Növbəti Balkan müharibəsində əsl hədəf kimdir?

ANALİZ

**Belqrad və Priştina arasında münasibətlər yenidən gərginləşib. Serbiya və Kosovo yeni qarşıdurmanın astanasındadır. Avqustun 1-dən Kosovo hakimiyyəti ölkənin şimalında yaşayan serblər üçün Serbiyada verilmiş avtomobil nömrələrini və şəxsi sənədləri dəyişdirməyə başlayıb. Serbiya Xarici İşlər Nazirliyinin rəhbəri Nikola Selakoviç serblərin "Priştinadan əsl cəhənnəmə girdiyini" elan edib və Serbiya hökuməti Kosovo hakimiyyətinin razılığı olmadan Kosovoda "Serb bələdiyyələri Birliyi"ni yaratmağa başlamaqla hədələyib. İyulun 31-də axşam Kosovonun şimalında partlayışlar və atışma səsləri eşidilib. Yerli KİV-in məlumatına görə, Serbiya ordusu yüksək hazırlıq vəziyyətindədir, Kosovonun serb əhalisi barrikadalar qurur, Kosovo xüsusi təyinatlıları isə sərhədi bağlayır. Ötən ilin payızında eyni problemə görə Serbiya ilə Kosovo arasında qarşıdurma az qala silahlı münaqişəyə çevriləcəkdi.**

Serbiyada verilən avtomobil nömrələrinin və sənədlərin Kosovonun şimalında yaşayan serblərə dəyişdirilməsi qərarının avqustun 1-dən icrasına başlanılması həftənin sonunda Kosovonun baş naziri Albin Kurti tərəfindən təsdiqlənib. Serblərə ana dilində müraciət edərək izah edib ki, Priştinanın indi gördüyü işlər Serbiyanın 11 ildir həyata keçirdiyi hərəkətlərə cavabdır. Avqustun 1-dən sentyabrın 30-dək avtomobil nömrələrini yenidən qeydiyyatdan keçirə və dəyişdirə bilərsiniz. Gömrük rüsumunu ödəməyə və texniki baxışdan keçməyə ehtiyac yoxdur, lakin iki aydan sonra təkrar qeydiyyatdan keçməyən avtomobillərin nömrələri götürüləcək. Hazırda Kosovonun şimalında təxminən 10 000 Serb dövlət nömrə nişanlı avtomobil istifadə olunur.

Oxşar tədbirlər Serbiya hakimiyyəti tərəfindən Kosovo serblərinə verilən şəxsi sənədlər üçün də tətbiq edilir. Kosovoya daxil olarkən onlar müvafiq sertifikatla əvəz edilməli olacaqlar. Belqradda Priştinanın qərarı son dərəcə sərt qəbul edilib. Serbiyanın xarici işlər naziri Nikola Selakoviç şənbə günü çıxışında deyib ki, qarşıdakı dövrdə bizi Priştina və Albin Kurti əsl cəhənnəmə gözləyir. Nazir bildirib ki, yaranmış vəziyyətlə əlaqədar ölkə prezidenti Kosovo serblərinin liderləri ilə görüşəcək, bundan sonra xalqa müraciət edəcək.

Bazar günü xalqa müraciətində Serbiyanın prezidenti Aleksandar Vuçiç həm Kosovo serblərinin, həm də Serbiyanın özünün düşdüyü vəziyyəti "son dərəcə çətin" adlandırıb və dərhal xəbərdarlıq edib ki, biz təslim olmayacağıq. Əgər onlar serbləri təqib etmək, təhqir etmək və öldürmək şansını gəlsələr, Serbiya döyüşməli olacaq və qalib gələcək.

Belqradın Priştinanın qərarına mümkün cavabını Serbiya hökumətinin Kosovo məsələləri üzrə departamentinin rəhbəri Petar Petkoviç açıqlayıb. Şənbə günü o bildirib ki, Kosovo hakimiyyəti öz planlarından əl çəkməsə, Serbiya müstəqil şəkildə və Priştinanın razılığı olmadan Kosovoda Serb Bələdiyyələr Birliyinin (CSM) formalaşmasına başlayacaq. Əsasən serblərin yaşadığı Kosovo, Belqrad və Priştinanı birləşdirəcək SMS-in yaradılması hələ 2013-cü ildə razılaşdırılıb və iki ildən sonra onun fəaliyyət prinsipləri barədə razılığa gəliblər. Bununla belə, 2015-ci ildə Kosovo Konstitusiya Məhkəməsi SCM-nin çoxmillətlilik prinsipini pozduğu üçün Kosovonun Əsas Qanununa zidd olduğuna dair qərar verib. O vaxtdan bəri Kosovo hakimiyyəti SCM-nin formalaşdırılması üçün heç bir addım atmaqdan imtina edib, lakin Belqrad bunu münasibətlərin normallaşması üçün əsas şərt hesab edir.

### Kosovo Avropa Şurasına üzvlük üçün müraciət edib

Petar Petkoviç bildirib ki, serblərin gözlədiyi başqa heç nə yoxdur. Kosovo hakimiyyəti özlərini istədikləri kimi apara bildikləri üçün serblərin Serb bələdiyyələrinin Birliyini yaratmağa başlaması normaldır. Serbiyanın yüksək rütbəli rəsmisi Qərb ölkələrini Belqradın SMS yaratmaq planlarını dəstəkləməyə və Priştinaya "gözlənilməz nəticələrlə təhdid edən" qərarından geri çəkilmək üçün təzyiq göstərməyə çağırıb.









Beləliklə, Belqrad və Priştina münasibətlərində vəziyyət ötənilki ssenari üzrə inkişaf etməyə başlayır. Bəs ötən il nə baş vermişdi? Belə ki, Kosovo hakimiyyəti serb nömrələri olan avtomobilləri öz ərazilərinə buraxmağı dayandırmış, bundan sonra serblər sərhəddəki keçid məntəqəsini bağlamış, orada barrikadalar qurmuşdular. Kosovo hakimiyyəti sərhədə xüsusi təyinatlıları göndərəndə serb qoşunları yüksək döyüş hazırlığı vəziyyətinə gətirilmişdi və Serbiya hərbi aviasiyası sərhəd bölgələrini üzərində uçuşlar həyata keçirməyə başlamışdılar.

Bir həftəlik silahlı qarşıdurmadan sonra Aİ-nin vasitəçiliyi ilə Belqrad və Priştina böhranı həll etməyə razılaşdılar, sərhəddə dövlət nömrə nişanlarını götürmək əvəzinə, onlara neytral stiker vurmağa başladılar, Kosovo xüsusi təyinatlıları geri çəkildi və Serblər keçid məntəqəsindəki barrikadaları sökdülər. Belqrad və Priştina o zaman avtomobil nömrələri probleminin uzunmüddətli həllini tapmağı öhdələrinə götürsələr də, bu, indiyə qədər baş vermədi və Serbiya və Kosovonu yenidən silahlı qarşıdurma astanasına qoydu.

### Kosovodakı NATO qoşunları yüksək hazırlıq vəziyyətində

Kosovodakı NATO qoşunları yüksək hazırlıq vəziyyətinə gətirilib. Kosovodakı Beynəlxalq Təhlükəsizlik Qüvvələrinin (KFOR) hazırkı tərkibi əsasən NATO üzvləri və onların müttəfiqləri olmaqla 28 dövlətdən olan xarici hərbçidən ibarətdir. Onların arasında Türkiyədən 350 və digər ölkələrdən gəlmiş 3775 hərbçi var. Məlumata görə, bağlanan "Brnyak" keçid məntəqəsi ərazisində atışma olduğu var.

Xatırladaq ki, Kosovo ərazisindəki alban çoxluğu Kosovo Respublikasının müstəqilliyinin dünya dövlətləri tərəfindən diplomatik tanınmasına cəhd edir. Serbiya isə bu bölgəni öz daxilində Kosovo və Metohiya muxtar vilayəti kimi tanıyır. Hazırda Kosovonun müstəqilliyini 97 ölkə tanıyıb. Azərbaycan Kosovonu suveren dövlət kimi tanımır.

"NATO-nun rəhbərlik etdiyi KFOR missiyası vəziyyəti yaxından izləyir və BMT Təhlükəsizlik Şurasının 1999-cu il tarixli 1244 saylı qətnaməsinə uyğun olaraq sabitliyə təhlükə yaranarsa, müdaxilə etməyə hazırdır. NATO-nun rəhbərlik etdiyi KFOR missiyamız bütün Kosovo xalqı üçün təhlükəsiz mühit və hərəkət azadlığını təmin etməkdir". Bu barədə NATO-nun Kosovo Qüvvələri açıqlama yayıb.

Bəyanatda həmçinin bildirilir ki, NATO dialoq vasitəsilə Priştina və Belqrad arasında normallaşma prosesini tam dəstəkləməyə davam edir və bütün tərəfləri danışıqları davam etdirməyə çağırır: "İnsan hüquqlarına və demokratik dəyərlərə hörmət edilmədən Balkanlarda daha yaxşı gələcəyə heç bir real ümid olmayacaq. Konstruktiv dialoq regional sabitliyin açarıdır. KFOR Kosovoda BMT mandatına uyğun olaraq bütün lazımi tədbirləri görəcək".

Serbiya Prezidenti Aleksandar Vuçiç bazar günü Respublika Silahlı Qüvvələrinin Baş Qərargahının binasına gəlib. Məlumata görə, dövlət başçısı ordu komandanlığı ilə Kosovo və Metoxiyadakı vəziyyəti müzakirə edir. Bazar günü axşam tanınmayan qurumun polisi Serbiya ilə inzibati xətt üzrə keçid məntəqəsini bağladıqdan sonra bölgədə vəziyyət kəskin şəkildə gərginləşib. Buna cavab olaraq Kosovonun şimal hissəsində serblər nümayiş keçirərək, əsas magistral yolları bağlayıblar. Bölgənin şimalındakı bir sıra şəhərlərdə həyəcan siqnalları işə salınıb. Qeyd edək ki, dünən Kosovo və Metoxiyanın serb əhalisi barrikadalar qurmağa başlayıb. Serbiya vətəndaşları Kosovonun şimalında və Metoxiyada barrikadalar qurublar. Onlarla insan Priştina - Raska əsas yolunu bağlayıb. Küçələrdə olan Kosovo polisinin xüsusi dəstələri (ROSU polis xüsusi təyinatlıları) şəhər əhalisi toplanması başlayanda ətraf kəndlərə yola düşüb.

Kosovo və Serbiya hücuma hazırlaşır

Serbiya prezidenti Aleksandr Vuçiç bəyanatla çıxış edib. O bildirib ki, Kosovo ordusu avqustun 1-də gecə yarısı sərhəd bölgələrinə hücum etmək niyyətindədir. Hakim Serb Tərəqqi Partiyasının deputatı Vladimir Cukanoviç də Balkanların denasifikasiyası ilə bağlı tvitt paylaşıb. Hazırda Şimali Kosovonun hər yerində həyəcan siqnalı verilir, kilsələr və monastırlar yarım saatdan artıqdır ki, fasiləsiz olaraq zənglərini çalır. Qeyd edək ki, eyni hal 1999-cu ildə də baş vermişdi. Son məlumatlara görə, artıq Yarinye keçid məntəqəsində serblər arasında güllə yarası alanlar var.

Bəs növbəti müharibə ocağının yaranması kimə və nə üçün lazımdır. Həssas və müvəqqəti söndürülmüş münaqişə ocağının yenidən alovlandırılmasından kimlər qazanclı çıxmağı düşünür? Ümumiyyətlə, müharibələri dayandıranların, sülh yaratmaq istəyənlərin sırası niyə seyrəlir? Balkanların yenidən hədəf seçilməsində bir məqsəd var, Qərblə Rusiyanın növbəti toqquşma ünvanı bəlli etmək, Rusiyaya təzyiqləri artırmaq, onun Avropadakı yeganə "qalası" sayılan Serbiyanı müqavimətsiz bir hala gətirməkdir. Növbəti ünvanlar da dəhşət yaradır. Söhbət Cənubi Qafqazdan gedir. Ermənistanın sülh prosesini uzatmaq cəhdi, Qərbin, xüsusilə də tarixin arxivinə atılmış Minsk qrupunun yenidən danışıqlarda əsas beynəlxalq mandatlı qurum kimi çıxış etmək həvəsi, bunun üçün dağları yenidən düzmək arzusu, Rusiya ilə toqquşan növbəti maraqlar və s., və ilaxır. Eyni zamanda Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlıların burnunun dibində erməni ordusunun yenidən silahlanması, törədilən təxribatlar bunu deməyə əsas verir ki, dünyanı qarışdırmağa, təxribatlar törətməyə, qonşuları bir-birinə vurmağa alışmış qüvvələr hələ də iş başındadır.

**V.VƏLİYEV**

# Yeni reallıqlar: idarəetmədə təkmilləşməyə yeni çağırış

**Dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı da bu məqsədə xidmət edir**

**"Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir." Dövlət başçısı İlham Əliyev, eyni zamanda, bildrir ki, əlbəttə, elmin inkişafı da ümumi inkişaf templəri ilə uzlaşmalıdır. Azərbaycanda elmin, ali təhsilin, iqtisadiyyatın birliyi yaradılmalıdır. Bizim üçün elmin inkişafı ilə bağlı əsas məsələ prioritetlərin düzgün seçilməsidir. İşimizi bu prioritetlər üzərində qurmaq üçün konkret təkliflər verilməlidir.**



Bu reallıq da inkaredilməzdir ki, bütün dövrlərdə alimlərimiz Azərbaycanın müxtəlif istiqamətlərdə inkişafına dəyərli töhfələrini vermişlər. İndiki müstəqilliyimizin inkişafı və möhkəmlənməsi şəraitində elmi potensialın güclənməsinə böyük ehtiyac vardır.

Dövlət başçısı İlham Əliyev günümüzün əsas çağırışı olan bu mühüm məqamı xüsusi qeyd edir ki, uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail ola bilərik: "Bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək, - mən inanıram ki, buna nail olacağıq, - onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir."

Ölkəmizdə savadlılığın səviyyəsinin təxminən 100 faizə yaxın olması, təbii ki, uğurlu, təkmil islahatların, təhsilin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir. "Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır" söyləyən ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, təhsilə göstərilən diqqət büdcə xərclərimizdə də özünü təsdiqləyir. Büdcə xərclərimizin əsas hissəsi təhsillə və müdafiə potensialımızla bağlıdır. Cənab İlham Əliyev vurğulayır ki, biz gələcəyə bu cür baxırıq: müasirlik, dinamik inkişaf, texnologiyaların tətbiqi.

Ölkə Prezidentinin elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə 28 iyul 2022-ci il tarxidə imzaladığı "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı da müasir dövrün tələblərin özündə ehtiva edir. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Nazirliyə həvalə edilir.

Prezident İlham Əliyevin irəli sürdüyü hər bir təşəbbüs, qəbul etdiyi hər bir qərar, atılan addımlar Azərbaycanın gələcəyinə xidmət edir. 44 günlük İkinci Qarabağ müharibəsində Qələbəmizin yaratdığı reallıqlar islahatları dərinləşdirməyi, idarəetmədə təkmilləşməni bir tələb çevirib. İmzalanan Fərman Azərbaycanda elm və təhsilin inkişafında, vəhdətin yaradılmasında yeni bir mərhələnin başlanğıcı olacaq. Elm sahəsində islahatların aparılması gələcəkdə uğurlu nəticələrini verəcək.

Reallıq budur ki, bu gün Azərbaycan regionun aparıcı qüvvəsi, dünyada etibarlı tərəfdaşdır. Ölkəmizdə bütün sahələrdə zamanın tələblərinə uyğun olaraq ciddi islahatlar həyata keçirilir və uğurlu nəticəsini verir. Azərbaycanın inkişaf modeli dünyaya nümunədir.

Təkcə bu faktı qeyd etmək kifayətdir ki, ölkəmiz son illərdə orbitə 3 peyk çıxarıb: "Azerspace 1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azerspace 2". Bu mühüm hadisələr dövlətimizin gücünü, həyata keçirilən siyasətin uğurlu gələcəyə hesablandığını təsdiqləyir. Ölkə Prezidenti İlham Əliyev üçüncü peykin orbitə buraxılması münasibətilə xalqa təbrikində bu məqamı da qeyd etmişdir ki, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir. Yeni texnologiyaların tətbiqi şəraitində qarşıya əsas hədəf kimi qoyulan iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılmasına yüksək səviyyədə nail olmaq mümkündür. Yeni inkişaf mərhələsinin əsas çağırışı çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

Təhsil problemlərinin həlli istiqamətində zəruri addımların atılması, uşaqların gənc yaşlarından ən mütərəqqi təcrübə ilə tanış olması, beynəlxalq standartlara uyğun hazırlanması üçün ölkəmizdə əsaslı baza yaradılıb. Təhsilin inkişafında məktəblərin rolu önə çəkilərək, onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, kompyuterləşdirilməsi əsas məsələ kimi öndədir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində 2 mindən artıq məktəb tikilib və ya yenidən təmir olunaraq istifadəyə verilib. Bu günümüzün əsas tələbi budur: "Hər şagirdə bir kompyuter".

Məqsəd budur ki, təhsilə ayrılan xərclərdən səmərəli istifadə olunsun, gənc nəslin dünyada gedən proseslərə uyğun, eyni zamanda, milli dəyərlərə əsaslanaraq inkişafı təmin edilsin. Azərbaycanın gənclər arasında əməkdaşlığın inkişafına xidmət edən müxtəlif səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın gənclər siyasətinin uğurlarına aydınlıq gətirir. Bu tədbirlərdə əsas məqsəd məhz bu olmuşdur ki, müxtəlif ölkələrdə aparılan gənclər siyasətinə diqqət artırılsın, gənclər siyasəti üzrə dünya ekspertləri bir araya gəlib, müasir dövrün çağırışlarını birgə cavablandırmağın yollarını müzakirə etsinlər. Dünya gənclərinin problemlərinin Azərbaycanda müzakirə olunması bu sahədə də təcrübəmizin nümunəviliyinə, ölkənin hərtərəfli inkişafında gənclərin malik olduğu potensial imkanlardan səmərəli istifadəyə daha çox önəm verilməsinə işıq saldı. Azərbaycanın təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Gənclər Sammitinin bu günlərdə ölkəmizdə keçirilməsi də deyilənlərin təsdiqidir. Quruma üzv 120 dövlətin gənclərini bir araya gətirən bu Sammitdə gənclərin potensial imkanlarından səmərəli istifadə fonunda hədəflər müəyyənləşdirildi.

Dövlətimizin gənclərin malik olduğu imkanlardan maksimum istifadə istiqamətində atdığı addımların davamlılığı qəbul olunan və uğurla icra edilən Dövlət proqramlarından da aydın görünür. Dövlət başçısı İlham Əliyevin 16 noyabr 2018-ci il tarixli "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın, həmçinin 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiqlənməsi haqqında Sərəncamları uğurlu iqtisadi tərəqqinin kadr hazırlığının beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdırılmasından asılı olduğunu bir daha təsdiqləyir. Ölkə Prezidenti İlham Əliyevin gənclərin xarici ölkələrdə təhsili ilə bağlı Dövlət Proqramının uğurlu icrası da bu kimi məqsədlərə yönəlmişdir. Artıq bu Proqramın icrası müddətində 5 min tələbənin xarici ölkələrdə təhsili təmin edilib. Onlar təhsillərini başa vuraraq, Vətənə qayıtmaqla əldə etdikləri təcrübələr əsasında ölkəmizin daha da inkşafına, tərəqqisinə öz töhfələrini verirlər.

Bir sözlə, Prezident kimi fəaliyyətə başladığı gündən "Neft kapitalını insan kapitalına çevirək!" tezisini irəli sürən və bu istiqamətdə mühüm addımlar atan dövlət başçısı İlham Əliyev hər zaman bildirir ki, yeniləşmə, təkmilləşmə dövlət siyasətinin ana xəttini təşkil edir.

Məhz İKT sektorunda əldə olunan uğurlara söykənərək, bu fikri də böyük əminliklə qeyd edirik ki, Azərbaycan bu gün dünyada təkcə neft-qaz ehtiyatlarına malik ölkə deyil, həmçinin yüksək səviyyəli elmi potensiala malik və informasiya-kommunikasiya texnologiyalarının tətbiq olunduğu innovasiyalar ölkəsi kimi tanınır. Beynəlxalq Telekommunikasiya İttifaqının qiymətləndirilməsinə əsasən Azərbaycan son illərdə İKT sahəsində dünya üzrə dinamik inkişaf edən ölkələr sırasında ilk onluqdadır. Bütövlükdə bəşəriyyətin innovasiyalardan, müasir texnologiyalardan faydalandığını nəzərə alsaq, Azərbaycanın bütün sahələrdə təcrübəsi nümunə olmalıdır. Artıq qeyd etdiyimiz kimi, tarixi Zəfərimizin reallıqlarını yaşayırıq. Bu reallıqlar hər sahədə islahatları, təkmiləşməni bir tələb kimi qarşıya qoyur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının davamı olaraq "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqləndi. Bu sənəddə də yeni texnologiyaların tətbiqinin ölkəmizin gələcək inkişafında rolu xüsusi önə çəkilir. Davamlı inkişafa yönələn Strateji yol xəritələri 2013-2023-cü illərdən sonrakı dövrün də aydın mənzərəsini yaradır. Təhsilin, elmin və iqtisadiyyatın birliyinin yaradılması fonunda Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz reallıqdır.

***Yeganə Əliyeva***

## İsveç saytı Azərbaycan ilə Krallıq arasında əlaqələrdən yazır

İsveçin "Cawamedia" saytında Azərbaycan ilə Krallıq arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi haqqında məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, "Cawamedia" saytında dərc edilmiş "Azərbaycan-İsveç münasibətlərinin 30 illiyi" sərlövhəli məqalədə yubiley tarixinə həsr olunmuş rəsmi görüşlərdən və tədbirlərdən danışılır. Məqalədə deyilir ki, Azərbaycan hökuməti bununla əlaqədar Krallığın hökumətinə və İsveç xalqına rəsmi təbrik məktubu göndərib, Azərbaycan Xarici İşlər Nazirliyinin tviter səhifəsində isə iki ölkə arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə ümid ifadə olunub.


30-årsjubileum mellan Azerbajdzjan och Sverige


Bu il mayın 18-19-da Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Fariz Rzayev Stokholma rəsmi səfər edib. Səfər zamanı F.Rzayev Krallığın xarici işlər naziri Ann Linde, riksdaqın spikeri Andreas Norlen və xarici işlər nazirinin müavini Maqnus Nilsson ilə görüşüb.

Məqalədə deyilir: "Görüşlər çərçivəsində tərəflər Azərbaycan ilə İsveç arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin hər iki paytaxtda silsilə tədbirlərlə qeyd edilməsinin əhəmiyyətini vurğulayıb, ikitərəfli münasibətlərin cari vəziyyətini və perspektivlərini müzakirə edib, Cənubi Qafqazda münaqişədən sonrakı dövrdə gedən proseslər barədə fikir mübadiləsi aparıblar".

# Kiber cinayətkarlardan özümüzü necə qorumalıyıq?

ARAŞDIRMA

**Son illərdə kiber cinayətkarlar adi insanlar, iri korporasiyalar və hətta bütün dövlətlər üçün əsl fəlakətə çevrilib. Həm ciddi cinayətkar dəstələr, həm də təcrübəsiz xakerlər üçün yer olan yaxşı qurulmuş paralel kainata çevrilib. Bununla belə, dünya kibercinayətkarları öz yerinə qoymaq üçün nəzərdə tutulan dəyişikliklər astanasındadır. Bəşəriyyət xakerlərə qarşı mübarizə aparmaq üçün necə birləşməlidir?**

Şəxsi məlumatlar müasir dövrün yeni valyutasına çevrilir. Gələcəkdə məxfiliyin əhəmiyyəti artmağa davam edəcək. Bir tərəfdən texnologiyanın inkişafı həm həyatı asanlaşdırır, həm də fiziki qüsurlu insanlara yeni imkanlar verir. Digər tərəfdən, hətta zərərsiz görünən texnologiyalar belə böyük risklər daşıyır.

Məsələn, müxtəlif sahələrdə fəal şəkildə kök salan virtual və əlavə reallığın mənfi tərəfi var - istifadəçi haqqında daim məlumat toplanması.

Virtual reallıq təcavüzkarların istifadə edə biləcəyi başqa bir boşluqla doludur. Məxfiliklə bağlı narahatlıqlar təkcə texnologiyadan birbaşa istifadə edənlərə deyil, hər kəsə təsir edəcək məqamı vurğulayır ki, belə bir mənzərədə kiber təhlükəsizliyin əhəmiyyəti artır. Artıq xakerlər süni intellektə əsaslanan sistemlərə elə hücum etməyi öyrəniblər ki, nəticədə şirkətlər yanlış biznes tövsiyələri alırlar.

Kiberfiziki sistemlərin qorunması ideyası informasiya təhlükəsizliyi dünyasında əsas məsələlərdən birinə çevrilmişdir. Mütəxəssislər əmindirlər ki, bu anlayış dünyanı kiber təhlükəni məğlub etməyə yaxınlaşdırıb.

Analitiklər pilotsuz nəqliyyat vasitələrini kiberfiziki sistemlərin ən parlaq nümunələrindən biri hesab edirlər. 2030-cu ilə qədər onların sayının bir milyonu keçəcəyi proqnozlaşdırılıb. Onlar təkcə yükləri deyil, insanları da daşıyacaq, taksi və şəxsi nəqliyyat vasitəsi kimi istifadə olunacaqlar. Dronlar, demək olar ki, kiber cinayətkarların diqqətini cəlb edəcək və ilk növbədə nəzarəti ələ keçirməkdə, şəbəkə və virus hücumlarından istifadə etməklə, həmçinin peyklərdən gələn siqnalları əvəz etməkdə maraqlıdırlar.

Analizlər aparan laboratoriyaların məlumatına görə, hər gün 390 000-dən çox yeni zərərli proqram aşkar edilir. Bu miqdarda zərərli proqram xakerlərə hədəfləmə üçün demək olar ki, qeyri-məhdud seçimlər verir.

İstifadəçilər musiqi yükləyərkən və ya pulsuz fotolara baxarkən virtual "ağızdan ağıza" çox vaxt "qəribə" saytların yeminə düşürlər.

Şübhəli keçidə klikləməklə, sisteminizə zərərli proqramlar işə sala bilərsiniz, bu da təcavüzkarlara bank hesabları və kredit kartı nömrələri daxil olmaqla şəxsi məlumatlarınıza giriş imkanı verir.

Risk altında olmamaq üçün yaxşı reputasiyaya malik saytları ziyarət etmək lazımdır. Ümumiyyətlə, ən təhlükəsiz bağlantılar istənilən "Google" axtarış nəticələrinin yuxarı hissəsində görünür.

Təcavüzkarlar nə baş verdiyini bilmədən istifadəçini faylları yükləməyə inandırmaqda mahirdir. Onların sevimli hiyləsi zərərli kodu kompüter virusunun skan proqramı kimi ötürməkdir ki, bu da şübhəsiz ki, istifadəçiyə onlayn təhlükələrdən qorunmağa "kömək edəcək". Lakin, bu linkə bir klik kompüterdə qanuni təhlükəsizlik həllərinin istifadəsinə mane ola bilər.

**DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin (DOST RİM) İnformasiya Təhlükəsizliyi Departamentinin direktoru Kənan Şahmuradov** SİA-ya açıqlamasında kiber hücumlarından və onlardan qorunma yollarından danışıb.



Bu gün dünyada çoxsaylı kiberhücum baş verir. Kibertəhlükəsizliyə ümumi olaraq komputer təhlükəsizliyi, əməliyyatların təhlükəsizliyi, məlumatların qorunması, şəxsi məlumatların təhlükəsizliyi, internet şəbəkəsinin təhlükəsizliyi, hətta hər hansı siqnal ötürməsini edən cihazların təhlükəsizliyi daxildir. Bu mövzuların belə budaqlanmasına və önəm qazanmasına səbəb qarşılaşdığımız kiberhücum və təhlükələrdir. Kiberhücumların sayı və tipi artdıqca, mütənasib olaraq kibertəhlükəsizliyin qolları da artdı.

Kiberhücumların müxtəlif növlərini bilsək, şəbəkələrimizi və sistemlərimizi onlardan qorumaq daha asan olar. Ziyanverici proqramlar sistemlərə istifadəçinin xəbəri olmadan yüklənir və kompüterin fəaliyyətinə təsir göstərir. Kompüteri bot kimi istifadə edərək başqaları tərəfindən uzaqdan idarə olunmasına səbəb olur. Milyonlarla insana zərər vermiş bu hücumların ən çox yayılmış növləri isə bunlardır:

Malware
Phishing
Man-in-the-Middle (MitM) Attacks
Denial-of-Service (DOS) Attack
SQL Injections
Zero-day Exploit



Password Attack
Cross-site Scripting
Rootkits
Internet of Things (IoT) Attacks və s. bunlardan bir neçəsidir.

## Kiberhücumlardan qorunmaq üçün nə etmək lazımdır?

Gəlin ümumiləşdirək və bütövlükdə kiberhücumdan qorunmaq üçün bir neçə məsələyə diqqət çəkək. Parollarınızı mütəmadi olaraq dəyişdirin və sındırılması çətin olan güclü parollardan istifadə edin. Eyni parolu iki dəfə istifadə etməyin. Həm əməliyyat sisteminizi, həm də proqramlarınızı müntəzəm olaraq yeniləyin. Bu, istənilən kiberhücum üçün əsas qorunma üsuludur. Qeyd etdiklərimə mütəmadi olaraq əməl olunması hakerlərin istifadə etməyə meylli olduğu zəifliklərı aradan qaldıracaq. Naməlum kontent göndərənlərin e-poçtlarını açmaqdan çəkinin. Aldığınız e-poçtları boşluqlar və əhəmiyyətli səhvlər üçün yoxlayın. İki faktorlu və ya çox faktorlu autentifikasiyadan istifadə edin. İki faktorlu autentifikasiya ilə istifadəçilərdən özlərini təsdiqləmək üçün iki fərqli autentifikasiya faktoru təqdim etmələrini tələb edir. İstifadəçi adınız və şifrənizdən başqa sizdən iki əlavə autentifikasiya metodu tələb olunduqda, biz bunu çox faktorlu autentifikasiya adlandırırıq.

Qeyd olunanlar hesabınızı qorumaq üçün vacib bir addım olduğunu sübut edir. Qurum daxilində işçilər kibertəhlükəsizlik prinsiplərindən xəbərdar olmalıdırlar. Onlar müxtəlif kiberhücum növlərini və onlarla mübarizə yollarını bilməlidirlər. Bununla bağlı mütəmadi şirkət daxili mariflndirmə tədbirləri görülməlidir. Sosial şəbəkələrin, poçt xidmətlərinin və proqramların təhlükəsizlik və məxfilik siyasətlərini, həmçinin vebsaytların istifadə şərtlərini oxuyun. Şərtlər sizi qane etmirsə imtina edin. Şəxsi məlumat üçün sorğuları yoxlayın. Sizdən şəxsi məlumatı (sizin və ya başqasının) təqdim etməyiniz tələb olunduqda, sorğu edənin kimliyini yoxlayın (hətta bu tanıdığınız biri kimi görünsə belə). Təhlükəsiz olduğunu düşünsəniz belə, mütəmadi olaraq maliyyə hesabatlarınızı və kredit hesabatlarınızı yoxlayın. Biznes məlumatlarını qorumaq üçün avadanlıqların təhlükəsizliyini təmin etmək, məlumat ehtiyyat nüsxələrinin çıxarılması və şifrələnməsi, kibertəlükəsizliyə investisiya etmək, təhlükəsizliyə yönəlmiş mədəniyyəti təbliğ etmək və kibertəhlükəsizlik proqramlarından istifadə etmək vacibdir. Addımların atılması riski azaltmağa və biznesin fasiləsiz işləməsinə kömək edəcək.

Azərbaycan informasiya məkanının kiber təhdidlərdən qorunma səviyyəsi əvvəlki illərə nəzərən inkişaf etmişdir. Ümumi olaraq qeyd etsək, informasiya sistemlərinin qorunması daha təkmil şəkildə həyata keçirilir. Bu sahədə vətəndaşlarımızın maarifləndirilməsi və məlumatlılıq dərəcəsinin yüksəldilməsi üçün maarifləndirmə işlərinin artırılmasına ehtiyac var. Gənc nəslin kibertəhlükəsizlik sahəsinə marağı böyükdür. Onların öyrənmək həvəsi və potensialını nəzərə alaraq bu sahənin daha da inkişaf etdirilməsinə təkan vermək mümkündür.

Müasir həllər olaraq XDR və "Threat İntelligence" proqram təminatlarını qeyd etmək olar. "Threat İntelligence" - Kiber təhlükənin təhlili və informasiya təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş analitik məlumatların məcmusudur. Diqqətlə seçilmiş məlumat istifadəçiləri və biznesləri kibertəhlükələrdən necə qorumaq barədə əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir.

"Extended Detection and Response" (XDR) - XDR (Qabaqcıl aşkarlama və cavab) bir çox təhlükəsizlik təbəqələri - e-poçt, son cihazlar, serverlər, şəbəkələr və bulud iş yükləri üzrə məlumatları toplayır və əlaqələndirir. Bu məlumatların təhlili təhdidləri daha tez aşkar etməyə, araşdırma və cavab müddətini azaltmağa imkan verir.

Qloballaşan dünyada rəqəmsallaşma olduqca önəmli rol oynayır. Proseslərin idarə olunmasında və nəzarət mexanizminin həyata keçirilməsində İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) son həllərindən geniş istifadə olunur. Tətbiq olunan yeni innovativ həllər özlüyündə rəqəmsal ekosistemin yaranmasına gətirib çıxardır. Dünyada istifadə olunan yeni İKT həllərinin Azərbaycanın azad edilmiş ərazilərində də istifadə olunması planlaşdırılmışdır. Ötən dövr ərzində bu istiqamətdə müəyyən işlər həyata keçirilmişdir. Bunlardan biri "Ağıllı kənd" konsepsiyası hesab olunur. "Ağıllı kənd" konsepsiyası insanların həyatını asanlaşdırmaq, istehsal və xidmət sektorunda səmərəliliyi artırmaq üçün İKT-nin imkanlarından istifadəni nəzərdə tutur. Bu konsepsiyanın tətbiqi rəsmi qurumların yerli sakinlər, o cümlədən də infrastrukturla birbaşa əlaqə qurmağa, kənddə baş verənləri və kəndin necə inkişaf etdiyini izləməyə imkan verir. Məlum olduğu kimi, işğaldan azad olunan ərazilərdə inşa olunacaq yeni yaşayış məskənlərinin "Ağıllı kənd" ("Smart Village") konsepsiyası əsasında tikilməsi nəzərdə tutulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ağıllı kənd" layihəsi çərçivəsində ilk "Smart DOST" xidmət məntəqəsi Zəngilan rayonunun Ağalı kəndində istifadəyə verildi.

Xidmət məntəqəsində sistemin quraşdırılması və istifadəyə verilməsi işləri DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi tərəfindən həyata keçirilmişdir. Məntəqəyə yaxınlaşan vətəndaşa xidmət onlayn qəbul sistemi vasitəsilə virtual olaraq, DOST agentləri tərəfindən həyata keçiriləcəkdir. Ehtiyac yarandıqda məntəqədə vətəndaşa texniki dəstək göstərəcək əməkdaşın fəaliyyəti də nəzərdə tutulub. Qeyd edək ki, Zəngilanın Ağalı kəndində istifadəyə verilən "Smart DOST" sistemi ilə vətəndaşlarımız əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahəsində onlayn formada 100-dən çox xidmətdən şəffaf, rahat və əlçatan şəkildə yararlana biləcəklər.

**Fəlsəfə elmləri doktoru, sosioloq Mail Yaqub isə qeyd edir.**

Kiber təcavüzkarlar müxtəlif yollarla cəmiyyətə zərər vura bilərlər. Nəzərə alsaq ki, bu gün artıq əksər fəaliyyət sahələri internet üzərindən həyata keçirilir, deməli, kiber cinayətkarlığının da fəaliyyət arealı kifayət qədər genişlənib. İnsanların böyük zəhmətlə ərsəyə gətirib, internetdə satışa çıxardığı məhsulların oğurlanması yaradıcı startapçılara ən böyük zərbədir. Bu tip cinayətlər hər bir cəmiyyətdə yaradıcı beyinlərin işinə ən böyük əngəldir.



Təbii ki, kiber cinayətkarlıq əsasən alıcısı çox olan məhsullar üzərində həyata keçirilir. Məqsədlər müxtəlifdir. Başqasının əməyini oğurlamayıb, asan yolla pul qazanmaq, siyasi məqsədlərlə təxribat yaratmaq cəhdləri, şəxsiyyətləri nüfuzdan salmaq, alçatmaq və sair.

Nə etməli? Təbii ki hüquqi yolla bu kimi cinayətlərin qarşısını almaq üçün yeni prosedurlar fikirləşmək vacibdir. Lakin, bu kifayət etmir. Həm də bu qəbildən olan cinayətləri hüquqi yollarla aşkara çıxarmaq da bəzən çox çətindir. Daha iki yol qarşımızda dayanır: elmi üsullar və əxlaqi tövsiyələr. Kiber cinayətkarlar informasiya texnologiyaları ilə bu işi həyata keçirirlərsə, biz də bunun qarşısını almaq üçün İT sahəsinə xüsusi önəm verməli, bu sahədə biliklərimizi artırmalıyıq.

Əxlaqi tövsiyə və maarifləmə məsələsi də vacibdir. Bəlkə də, bu ilk baxışda anormal görünə bilər, "cinayətkara nə bilir əxlaq nədir" kimi iradlar ola bilər, amma mən əminəm ki bütün hallarda cəmiyyət üçün əxlaq vacibdir və bu yöndə olan maarifləmə işi bir sıra cinayətlərin qarşısını ala bilər.

Ölkəmizdə informasiya təhlükəsizliyi ilə bağlı vəziyyəti dəyərləndirən mütəxəssis Asif Rzayev qeyd edir. Ölkə əhalisinin çox hissəsi internetdən istifadə edir. Bütün bunlar ölkəmizin kiber mühitin təhlükəsizliyinin yüksək səviyyədə təmin olunmasını şərtləndirir. Bu istiqamətdə müvafiq addımlar atılır. Azərbaycan Ali Məktəblərində də bu sahəyə xüsusi diqqət yetirilməyə başlayıb. Bu sahə ilə bağlı yeni ixtisaslar yaradılıb və müvafiq fənlər üzrə tədris aparılır". Bununla bağlı müəyyən tədbirlər görülməlidir. Digər problemlərdən biri də kompüter istifadəçilərinin bu sahə ilə bağlı az məlumatlı olmasıdır. İnformasiya təhlükəsizliyinin ən zəif halqası insandır. Bununla bağlı maarifləndirmə seminarları və tədbirləri keçirilməlidir.

***Havar Şəfiyeva***

# Dilimiz sərvətimizdir

MƏQALƏ

Millətin millət olaraq var olmasını, təsdiqini göstərən amillərdən ən əsası onun dilinin və əlifbasının olmasıdır. Dil milli varlığın əsas atributlarından biridir. Eyni zamanda, millətin simasını əks etdirən dil dövlətin tarixi sərvətidir. Bu səbəbdən dilə sahiblənmək və qorumaq lazımdır. Dilin bir ana dili kimi formalaşması və təsdiqini tapması üçün əlifbanın rolu əvəzsizdir. Bu gün Azərbaycan dilinin dövlət statuslu dillər arasında olmasına görə bu dilin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ulu öndər milli-mənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atıb. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Azərbaycan dilinin dövlət statuslu dillər arasında olmasına görə bu dilin mənəvi dirilik atributuna çevrilməsi yolunda Azərbaycan ziyalıları - şair, yazıçı, dramaturq və dilçiləri böyük fədakarlıqlar göstəriblər.




Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi.

1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, ulu öndərin ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi oldu. Ulu Öndərin bu sözləri yaddaşımıza həkk olub: "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir".

Bundan sonra hökumət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi ulu öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etdi. Ümummilli liderin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i ölkəmizdə "Azərbaycan dili və Azərbaycan Əlifbası Günü" kimi qeyd olunur. 2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür. Milli-mənəvi dəyərlərin ən qiymətlisi və bir millət kimi milli varlığın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində bu günə qədər çox mühüm addımlar atıb. Ölkədə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

***Q. Quliyeva***

# "Strateji istiqamətlərin əsasını Azərbaycan dilini qorumaq və inkişaf təşkil edir"

## PROFESSOR AÇIQLADI






"2001-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan dilinin tətbiq üsulunun təkmilləşməsi haqqında xüsusi fərman verilmişdir". Bu fikirləri SİA-ya açıqlamasında Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmlər doktoru, professor Sayalı Sadıqova bildirib.

Onun sözlərinə görə, bu fərmanda Azərbaycan əlifbasının tətbiqi işinin təkmilləşməsi və qəti olaraq ölkədə latın qrafikasına keçid təmin olunmuşdur: "Əsaslandırılmışdır ki, ölkə daxilində bütün mətbuat, qəzet və yazışmalar avqust ayının 1-dən Azərbaycan əlifbası olan latın qrafikası ilə həyata keçirilsin. Bu iş hazırda uğurla yerinə yetirilir. Eyni zamanda, Azərbaycan dilinin qorunması, Azərbaycan dilinin yüksək səviyyədə inkişafının təmin edilməsi yönündə mühüm strateji istiqamətlər müəyyənləşdirilib. Bu strateji istiqamətlərin əsasını Azərbaycan dilini qorumaq və inkişaf təşkil edir. Bu gün Azərbaycan dili yüksək səviyyədə qorunur və onun qorunması istiqamətində çox mühüm işlər aparılır. Xüsusilə, Azərbaycan əlifbasının tətbiq edilməsi məsələsində Ulu Öndər Heydər Əliyevin ardıcıl siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2004-cü ildə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncam imzalanmışdır. Bu sərəncama görə Azərbaycan dilində olan bütün kitablar, yəni kiril qrafikasında nəşr olunan bütün kitablar latın qrafikasına çevrilmişdir.

Qeyd edim ki, bu qrafikanın qəbul edilməsində, müsbət əhəmiyyətin inkilşaf etdirilməsində görkəmli dilçi alim Afat Qurbanovun mühüm rolu olmuşdur. 1990-cı ildə Əlifba Komissiyasının sədri Afat Qurbanov təyin edilib və onun rəhbərliyi altında xüsusi komissiya yaradılmışdır. Bu komissiyada latın qrafikasının qəbul edilməsi əsaslandırılmışdır. Afat Qurbanov tərəfindən əlifba tərtib edilmişdir. Onun tərtib etdiyi əlifba ictimaiyyət tərəfindən yüksək səviyyədə qarşılanmışdır. Onun əlifbası bu gün çox uğurla istifadə olunur. Latın qrafikası bu gün dünyada beynəlxalq qrafikadır. Bu qrafikada Azərbaycan dilinin tarixi və müasir nailiyyətləri özünü tam şəkildə ifadə edir".

***Abutel İlhamqızı***

# "Səbrimiz tükənmək üzrədir"

## HƏRBİ EKSPERTDƏN REAKSİYA



"Yenidən Azərbaycan və Ermənistan arasında müharibə olacağını gözləmirəm". Bunu SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev bildirib.

Ədalət Verdiyev qeyd edib ki, bunun üçün əks tərəfin müqavimət potensialı mövcud olmalıdır: "Ermənistan hazırda müharibədən əvvəlki potensialının təxminən 50 faizinə malikdir. Azərbaycan ordusunun potensialı isə müharibədən əvvəlki müddətdən iki dəfə daha yüksəkdir. Bu halda Ermənistanın müharibə edə biləcək potensialı yox dərəcəsindədir. Lakin antiterror əməliyyatlarının keçirilməsi istisna deyil".

Hərbi ekspert fikirlərinə əlavə edərək bildirib ki, məsələ ilə bağlı internetdə müxtəlif müzakirələr gedir. Biz, ilk növbədə, baş verən proseslərə Azərbaycanın sülh tərəfdarı olmasını da vurğulamalıyıq. Ermənistan prosesləri gecikdirməklə Azərbaycanın səbrini tükəndirmək üzrədir. Biz ictimaiyyət olaraq Ermənistan tərəfindən müsbət addımların atılmasını və erməni silahlılarının Qarabağ ərazisindən çıxarılmasını Zəngəzur dəhlizinin açılması və azərbaycanlı vətəndaşlarımızın Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərə qayıtmasını gözləyirik. Lakin indiki vəziyyətdə Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Hər an hər şey ola bilər, lakin bu, Azərbaycandan yox, Ermənistanın davranışlarından asılıdır. Onlar üzərinə götürdükləri öhdəlikləri yerinə yetirərlərsə, heç bir əməliyyat keçirməyə zərurət qalmır. Ermənistan tərəfi imzaladığı şərtləri zor və ya xoş ilə yerinə yetirməyə məcbur olacaq.

***Qönçə***

# 124 yaşlı Azərbaycan kinosu tarixi yolda



Bir əsrdən artıq tarixi olan Azərbaycan kinosunda xalqın tarixi həqiqətləri, adət-ənənələri, keçmişi və bu günü öz əksini tapır. Bu kinofilmlər bizlərə sirli bir dünyadan söz açır. Vaxtilə qəzet və televiziyada təqdim olunan "Proqram"larda bu gün hansı filmin nümayişi olacaq, dəyə həvəslə gözlədiyimiz filmlərin adını oxuyanda sevincimizin həddi-hüdudu olmurdu. "Axırıncı aşırım" və ya "O qızı tapın" sadaladıqca sonu bitməyən filmlər. Həmin filmlər bizim yaddaşımıza elə çöküb ki, onları nə vaxtsa alt qatdan çıxarmaq mümkün olmayacaq. Bu filmlərin yaradıcı simaları böyük sənət məktəbi keçmiş bir ansambl idi. Bizə tarixi keçmişimizdən Dədə Qorqudumuzdan, Koroğlumuzdan, Babəkimizdən, Mehdi Hüseynzadəmizdən, eləcə də neftimizdən, inkişafımızdan, tarixi şəxsiyyətlərimizdən soraq verir, onlardan söz açırdı. Böyük məktəb idi filmlərimiz. Onun süjetində dayanan əsas xətt insanı düşünməyə, böyük bir yola çıxmaq üçün yol göstərməyə qadir idi. Mehmanlar, Sevdalar, Nəcəflər yetişdirdi filmlərimiz. "Ağ köynəyə ləkə tez düşər" fikrini cəmiyyətə bir mesaj olaraq ötürdü. Bir müəllim tövsiyəsinin, ana öyüdünün nə qədər dəyərli və qiymətli olduğunu göstərdi. Dost seçməyi, vətənə sevgini aşıladı. Mübariz olmağı, düşmənlə üz-üzə duruş gətirməyi tərbiyə etdi. Ağı qaradan seçməkdə kömək oldu. Ötən illərin hər daşından, izindən bizləri xəbərdar edən Azərbaycan kinosu oldu. Bizləri həm güldürən, həm düşündürən, həm də mənəvi sarsıntılar yaşatdıran, kimliyimizi - qəhrəmanlığımızı, igidliyimizi, mübarizliyimizi, vətənpərvərliyimizi təqdim edən Azərbaycan kinosu. Bu filmlərdə ideal şəxsləri, ali dəyərləri görməyimizlə yanaşı, cəmiyyətin neqativ halları ilə də üz-üzə gəlirik. Ziddiyyətli dünyanın ziddiyyət kəsb edən məqamları ilə tanış oluruq. Neçə əsrlik tariximiz vərəqlənir, bu filmlərdə. O filmlərlə böyümüşük, ən yüksək dəyərlərin əxz olunmasında bizlərə təsirsiz ötüşməyib və hər bir filmdən bir iz salınıb dünyamıza. Artıq neçə illərdir ki, bu filmləri ərsəyə gətirən kinematoqrafçıların peşə bayramını qeyd edirik. Azərbaycanın müstəqillik əldə etməsi ilə kino işçilərinin də peşə bayramı 27 avqust tarixində deyil, məhz 2 avqust tarixdə qeyd olunmağa başlanıldı. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı əsasında, 2 Avqust Milli Kino Günü elan olundu.

## 1898-Cİ İL AVQUSTUN 2-DƏN BAŞLANAN YOL

Azərbaycan kinosunun yaranma tarixinə nəzər salsaq görərik ki, Azərbaycan kino sənətinin tarixi 1898-ci il avqustun 2-dən başlayır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və bir bədii kinosüjetdən - "İlişdin"dən ibarətdir. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə, Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynamışdı. Tarixi materiallar əsasında deyə bilərik ki, 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən isə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır. XX əsrin 20-ci illərində Bakıda yerli operatorlar və xarici kino şirkətlərinin nümayəndələri tərəfindən şəhərin həyatından və neft mədənlərindən bəhs edən kinoxronikalar və sənədli filmlər çəkilirdi. 20-ci illərdə Azərbaycan kinosunda tarixi-sənədli filmlərlə yanaşı, tamaşaçıları gənc respublikanın təsərrüfat və mədəni həyatındakı nailiyyətləri ilə tanış edən "Azərbaycan ekranı" kinojurnalı buraxılmağa başlandı.



## İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ AZƏRBAYCAN KİNOSU

Beləliklə, Azərbaycan kinosu inkişaf dövrünü yaşayırdı. Zamanın tələbi əsas meyar idi. İkinci Dünya müharibəsi başlananda kinematoqrafçılarımız tarixi zamanı ön sıralarda yaşadılar. İkinci Dünya müharibəsi illərində Azərbaycan sənədli kinosunun bir qrup rejissorları və operatorları cəbhə xəttinə gedərək, əsgərlərin qəhrəmanlığını lentə çəkirdilər. Həmin materiallar xüsusi buraxılışlar kimi əsgərlərə göstərilmək üçün müxtəlif cəbhələrə göndərildi. Bu dövrdə Azərbaycan xalqının arxa cəbhədəki əməyini əks etdirən kinojurnallar və kinooçerklər də yaradıldı. "Vətən uğrunda", "Qayğı", "Məktuba cavab", "Qardaş köməyi" kimi gözəl nümunələr yer aldı. 1944-cü ildə "Bakı kinostudiyası" Moskva Sənədli Filmlər Studiyası ilə birgə Xəzər dənizçilərinin qəhrəmanlığından bəhs edən "Xəzərilər" tammetrajlı sənədli filmini çəkdi. 1945-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar rejissor H.Seyidzadə "Əbədi odlar diyarı" tammetrajlı sənədli filmini yaratdı. Beləliklə, birbirinin ardınca Azərbaycan həyatını əks etdirən filmlər istehsal olunmağa başlanıldı. Həmin illərində qəhrəman döyüşçülər Kamal Qasımov və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" kinonovellaları, M.F.Axundovun həyat və fəaliyyətinə dair "Səbuhi" vahid süjet xətti ilə bağlı üç kinonovelladan ibarət "Bir ailə", müharibə dövründə dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuş "Sualtı qayıq T-9" bədii filmləri çəkildi. Çox keçmədi ki, Azərbaycanın müharibə dövründə qəhrəmanlıq göstərdiyi oğulların obrazı filmlərimizdə yer aldı. Cəsur partizan Mehdi Hüseynzadəyə həsr edilmiş "Uzaq sahillərdə" filmi isə Azərbaycanın, eləcə də, keçmiş sovet kinosunun nailiyyətlərindən oldu.

## İDEYA DƏRİNLİYİ İLƏ FƏRQLƏNƏN FİLMLƏR MEYDANA GƏLDİ

Sovet dövründə yaşadığımız illərə nəzər salsaq görərik ki, 1970-80-ci illərdə Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə kino sənətinin inkişafına, həmin sahədə çalışanlara qayğı və hörmətlə yanaşaraq kino sənəti xadimlərindən məhəbbətini əsirgəmədi. XX əsrin 60-70-ci illəri kinematoqrafiyaya gənclərin böyük bir qrupunun gəlməsi ilə əlamətdar olmuşdur. Onların orta və yaşlı nəslə mənsub xadimlərlə əməkdaşlığı Azərbaycan kinosunun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluq, ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb olmuşdur. Məsələn, "Bir cənub şəhərində" filminin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi və insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur. Bu dövrün filmlərində mənəvi-əxlaqi problemlər, müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və s. mövzular başlıca yer tutur: "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Baş müsahibə", "Var olun, qızlar", "Həyat bizi sınayır", "Xoşbəxtlik qayğıları" və s. filmləri göstərmək olar. 1970-ci ildən "Azərbaycanfilm" kinostudiyasında "Mozalan" satirik kinojurnalının istehsalına başlanılmışdır. Kinojurnalda cəmiyyətin antipodları, gündəlik həyatda və təsərrüfatda rast gələnən qüsur və nöqsanlar tənqid atəşinə tutulur.

## KİNEMATOQRAFİYADA AÇILAN YENİ SƏHİFƏ

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni baxışlar, yeni quruluş cəmiyyət qarşısında keyfiyyətcə yeni məqsəd və vəzifələr qoymuşdur. Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması əsas amillər idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında yeni bir dövrün başlanğıcı oldu. Ulu Öndər incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını çıxışlarında xüsusi vurğulamışdır.

Azərbaycanda milli ideologiyanın və cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər bu kimi sosial problemlər humanitar elmlərin öncül tədqiqat istiqamətlərinə çevrilmişdir. 1990-cı ildən sonra Azərbaycan kinosunda çəkilən filmlərin sayı əvvəlki illərə nisbətən azalmışdır. Bununla belə, Azərbaycan kinematoqrafçıları böyük əhəmiyyətli, həyati mövzulara müraciət edərək, estetik tələblərə cavab verə biləcək filmlər çəkmişlər. Belə ki, "Yarasa" və "Özgə vaxtı" filmləri o illərin ən mükəmməl filmləri sırasındadır.

Müstəqillik illərində çəkilən filmlər sırasında maraq doğuran Azərbaycanın Ümummilli Liderinin geniş və hərtərəfli fəaliyyətindən bəhs edən film N.Səfərovun ssenarisi əsasında operator O.Şıxəliyevin çəkdiyi "Hamıya nümunə olan ömür yolu" filmidir. Bu əsərdə Ulu Öndər Heydər Əliyevin 1990-cı ildən sonrakı fəaliyyəti öz yığcam ekran ifadəsini tapmışdır. Ssenarist və kinorejissor Vaqif Mustafayevin Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri diqqəti cəlb edir. Xüsusən, onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş çoxseriyalı "Heydər Əliyev" filmini çəkib. Onlardan "Əsl məhəbbət haqqında" film böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini, Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib.

Qarabağ müharibəsinə həsr olunmuş filmlərimiz də maraq doğurur. Son illərin hadisələri də ekran həllini tapmış və beynəlxalq müsabiqələrdə yer almışdır. "Arxada qalmış gələcək", "Atılmamış güllələr", "Biz qayıdacağıq", "Canavar balası, "Dolu", "Girov", "Xoca", "Xüsusi təyinatlı İbad", "Qarabağa gəzinti", "Laçın dəhlizi", "Vandalizm", "Mübarizə" və s. filmlərdə xalqımızın mübarizəsi, Qarabağ uğrunda gedən döyüşlər öz əksini tapmışdır.

## AZƏRBAYCAN KİNEMATOQRAFÇILARI ZƏFƏR TARİXİMİZİ YARATMALIDIRLAR: MÜKƏMMƏL SSENARİ VƏ REJİSSOR YOZUMU

Bu gün Vətən müharibəsində qəhrəmanlıq göstərmiş oğulların keçdiyi döyüş yolu, müharibə haqqında sənədli, bədii filmlər çəkilməlidir. Zəfərimiz, qələbəyə gedən yol filmlərdə yaşanmalıdır. Bədii filmlərin yaranması zəruridir. Bu filmlərdə bir xalqın tarixi öz əksini tapmalıdır. Böyük bir auditoriya üçün əhəmiyyət kəsb edə biləcək filmlərin istehsalına ehtiyac duyulur. "Biz", "Şuşa, sən azadsan!", "Fulya", "Görünməyən qəhrəmanlar" kimi sənədli filmlər artıq hazırdır. Sənədli-salnamə janrında "Görünməyən qəhrəmanlar" adlı film çəkilib. Müxtəlif qoşun növlərinin qəhrəman zabit və əsgər həyatının 44 günlük Vətən müharibəsi müddətində keçdiyi şərəfli və müzəffər döyüş yolundan bəhs edən bu salnaməyə "27 Sentyabr", "Hərbi Hava Qüvvələri", "Hərbi Dəniz Qüvvələri", "Artilleriya" və s. daxildir. "Həyat, deyəsən, gözəldir - Fəryad 2", "Müharibə uşaqları", "Köşk" kimi filmlər də çəkilib və bəzilərinin də çəkilişləri davam edir. Əlbəttə ki, bizim qələbəni, oradan şəhid olmuş oğulların həyatı daha mükəmməl bir şəkildə ekranlara gətirilməlidir. Müharibənin qaynar nöqtələrində olan və hadisələri gözü ilə görənlər ən mükəmməl ssenariləri yaza, rejissor yozumu verə bilərlər. Azərbaycan kinematoqrafçılarından tamaşaçılar mükəmməl filmləri gözləyirlər.

Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan kino sənətinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir. Kino sənəti sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə, kino xadimlərinə Prezidentin fərdi təqaüdləri, fəxri adlar və mükafatlar verilib. Azərbaycan kinematoqrafçıları bundan sonra da xalqımızın tarixi, keçdiyi yol ilə bağlı hadisələri ekranlaşdırıb, həyat həqiqətlərini kinoseverlərə təqdim edəcəklər.

***Zümrüd BAYRAMOVA***

# "Siyasi partiyalar haqqında yeni qanun layihəsinin hazırlanmasını müsbət qarşılayırıq"

""Siyasi partiyalar haqqında" qanun ölkə də fəaliyyət göstərən partiyaların siyasi proseslərdəki iştirakını tənzimləyən, onların cəmiyyətdəki yerini və rolunu müəyyənləşdirən, hüquq və vəzifələrini özündə əks etdirən qaydalar, prinsiplər və normalar məcmusudur. Lakin hazırda mövcud olan qanun günümüzün tələblərinə tam şəkildə cavab vermir. Çünki Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində qazandığı parlaq Zəfərdən və torpaqlarımızın işğaldan azad edilməsindən sonra ölkədə yeni reallıqlar, yeni münasibətlər, yeni mühit formalaşıb. Bütün bunlar isə heç şübhəsiz ki, "Siyasi partiyalar haqqında" qanunun da yenilənməsini tələb edir. Yeni çağırışlara uyğun qanun qəbul edilməlidir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib.



Onun sözlərinə görə, yeni qanunun hazırlanması olduqca əhəmiyyətli məsələdir. Nəzərə almalıyıq ki, Prezident İlham Əliyevin təşəbbüsü və siyasi iradəsinin nəticəsində ölkədə yeni siyasi konfiqurasiya formalaşıb, iqtidar-müxalifət dialoqu real məzmun almağa başlayıb, cəmiyyətdə siyasi consensus və milli birlik, həmrəylik mühiti formalaşıb, yeni siyasi açılımlar və islahatlar üçün əlverişli zəmin yaranıb. Siyasi partiyalar üçün normal mühit və imkanlar yaradılmaqdadır. Məsələn, siyasi partiyaların qeydiyyatının asanlaşdırılması və fəaliyyətlərinin yaxşılaşdırılması üçün bir sıra praktik addımlar atılıb. Partiyaların bir çoxu dövlət tərəfindən yeni mənzil-qərargahlarla təmin edilib. Partiya sədrləri dövlətin və hakim partiyanın təşkil etdiyi tədbirlərə dəvət edilir. İqtidar və müxalifət partiyalarının onlayn və real formatda görüşləri keçirilir, işğaldan azad edilmiş ərazilərə birgə səfərləri təşkil olunur.

Bir sözlə, siyasi partiyaların ölkənin ictimai-siyasi həyatındakı rolu, çəkisi get-gedə artmaqdadır və bu istiqamətdə növbəti addımların da atılacağı gözlənilir. Bütün bunlar isə heç şübhəsiz ki, yeni qanun layihəsində ehtiva olunmalı, bu və ya digər actual məsələlər ölkənin siyasi sisteminin gələcək perspektivləri nəzərə alınaraq tənzimlənməlidir. Ona görə də Siyasi partiyalar haqqında yeni qanunun hazırlanması və qəbul edilməsinə hava-su kimi ehtiyac var.

Ə.Hüseynov qeyd edib ki, Milli Həmrəylik Partiyası da yeni qanun layihəsi ilə bağlı təkliflər hazırlayıb: "Biz bu təklifləri Prezident Administrasiyasının müvafiq şöbəsinə - Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinə yazılı şəkildə təqdim etmişik. Bəzi təklif və rəylərimizi isə mətbuatda da səsləndirmişik. Biz hesab edirik ki, siyasi partiyaların tam şəkildə institutlaşması üçün proporsional seçki sistemi də gündəmə gətirilməli və bundan sonra ölkədə seçkilər qarışıq sistem əsasında keçirilməlidir. Eləcə də partiyaların dövlət qeydiyyatına alınması prosesi həm sadələşdirilməli, həm də təkmilləşdirilməlidir. Siyasi partiyaların maliyyələşdirilməsi məsələsi də diqqət mərkəzində saxlanılmalıdır. Zənnimcə, bütün bunlar siyasi sistemin daha da təkmilləşməsinə və optimallaşmasına gətirib çıxara bilər".

"Hesab edirik ki, siyasi partiyalar haqqında yeni qanunvericilik bazasının yaradılması Azərbaycanda siyasi fəaliyyətin yenidən və daha yaxşı təşkili üçün əlverişli zəmin yaradacaq və cəmiyyətdə milli həmrəylik, siyasi dialoq mühitinin tam olaraq oturuşmasına xidmət edəcək. Siyasi partiyalar vətəndaşlarımızın milli maraqlar ətrafında birləşməsində, konsolidasiya olunmasında və demokratik cəmiyyətin təşəkkülündə daha fəal iştirak etmək imkanı qazanacaq. Bu mənada, biz Siyasi partiyalar haqqında yeni qanun layihəsinin hazırlanmasını müsbət qarşılayırıq", -deyə partiya sədri vurğulayıb.

# "Ana dilimizin zənginləşdirilməsi istiqamətində mühüm işlər görülür"

"Xalqımızın sahib olduğu dəyərlərdən biri də onun milli sərvəti hesab olunan dilidir. Məlumdur ki, Azərbaycan dili xalqımızın tarixi qədər qədimdir, dünyanın ən saf və zəngin dillərindən biri hesab olunur. Xalqımızın milli mənlik şüurunun inkişafında, özünüdərkində dilimizin rolu böyük olub, milli ədəbiyyatımızın yaranmasına və inkişafına geniş imkanlar açıb. Digər sərvətləri kimi, xalqımız öz dilini də zaman-zaman müxtəlif təzyiqlərdən qorumuş, inkişaf etdirmiş və zənginləşdirmişdir. Bu gün harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımız bir-biri ilə bu dil vasitəsilə ünsiyyət qurur, öz kimliyini qoruyub saxlayır". Bu fikirləri SİA- ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.




Onun sözlərinə görə, ana dilimiz xalqımızın varlığının əsas təminatçısı olmaqla onun milli kimliyini müəyyən edən başlıca amillərdəndir və hər birimiz üçün dövlət rəmzləri miz qədər müqəddəsdir: "Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1918-ci ildə Azərbaycan dili rəsmi dövlət dili elan edilsə də, yaranmış real tarixi şərait səbəbindən bu, çox da uzun sürmədi. Sovet hakimiyyəti illərində yalnız 1956-cı ildə respublika Konstitusiyasına Azərbaycan dili haqqında maddə qeyd olunmuşdu. Xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etməyə başladığı vaxtdan bütün sahələrdə olduğu kimi milli dilimizin qorunmasi və inkişafı istiqamətində mühüm addımlar atılmağa başladı. Məhz onun effektli və davamlı dil siyasəti xalqımızın bu milli sərvətini kənar müdaxilələrdən, təzyiqlərdən xilas etdi, statusunu artırdı. Bilirik ki, sovet dövründə bu, son dərəcə çətin məsələ idi və böyük cəsarət tələb edirdi. Lakin Heydər Əliyev bu işlərin öhdəsindən şərəflə gəlirdi. Ana dilinin qorunması, zənginləşdirilməsi, bu sahə üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqət göstərir, bu istiqamətdə önəmli və cəsarətli qərarlar verirdi. Sovet İttifaqında milli dillərin sıxışdırılması məsələsi həmişə aktual idi, o cümlədən 1970-ci illərdə. Ulu Öndər Heydər Əliyev heç nədən çəkinməyərək dil məsələsində öz mövqeyini qəti şəkildə ortaya qoydu. Belə ki, 1978-ci il 21 aprel tarixində qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verildi. Bu addım Vətənimiz, xalqımız qarşısında Heydər Əliyevin böyük tarixi xidmətlərindən biridir. O, Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərirdi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılmasına çalışırdı".

"1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb. Həmçinin dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi, Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında imzalanmış fərman və sərəncamlar, 2003-cü ildə Azərbaycan Respublikasının Dövlət Dili Haqqında Qanunun qəbul edilməsi müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır, dövlət dili ilə bağlı hərtərəfli və geniş məlumatları ehtiva edir, dünya azərbaycanlılarının öz ana dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bütün bunlar Uu Öndərin bu sahənin inkişafına göstərdiyi diqqət və dəstəyin bariz nümunəsidir", - Milli Məclisin deputatı bildirib.

"Dövlətimizin başçısı cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, dövlətimizin dil siyasətində də Ulu Öndərimizin siyasi xəttinə sadiqlik nümayiş etdirir və bu sahəni hər zaman diqqətində saxlayır, inkişafının təmin olunması üçün müvafiq addımlar atır. Bu həm də cənab İlham Əliyevin xalqına, onun dilinə, milli-mənəvi dəyərlərinə olan dərin hörmətinin təzahürüdür. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi, Azərbaycan Milli Ensiklopediyasının və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin nəşri ana dilimizin hərtərəfli geniş tətbiqini mütərəqqi şəkildə gerçəkləşdirib.

2013-cü ildə milli və mənəvi varlığımızın aynası olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasına gətirib çıxarıb. Ümumiyyətlə, hər birimiz ana dilimizin qorunması və inkişafı naminə səylə çalışmalıyıq, bu, bizim müqəddəs borcumuzdur", - S.Möhbalıyev qeyd edib.

***Banuçiçək Hüseynli***



İLHAM

# Mənə dəniz lazım deyil

**Günümüzün reallığı ondan ibarətdir ki, bir qism diribaş, araxa-dayaqlı məxluqatlar kef edirlər. Yəni az zəhmət qarşılığında milyonlar qazanır, əl-ləm-qəlləm əməlləri hesabına malikanələr, villalar, obyektlər əldə edirlər. O qədər harınlayıb, yollarını azırlar ki, hətta yanlarında qoçu dəstələri də saxlayırlar. Vay o günə ki, kasıb-kusub, imkansız insan qudurğan məmurun və ya harınlamış iş adamının qəzəbinə tuş gələ, o zaman fırtına qopacaq, o kasıb fəlakətlər girdabına atılacaq və qoçu dəstəsi tərəfindən əziləcək, təhqir və təzyiqlərə məruz qalacaq. Bu barədə çox faktlar, misallar çəkmək olar, sadəcə, çimərlik mövsümü başlayandan bəri orada qoçu dəstələrinin törətdikləri əzazilliyi bir epizod üzrə qeyd etməklə, vəziyyətin fənadan da fəna olduğunu anlamaq olar.**

Əvvəlcədən qeyd etmək olar ki, Azərbaycan qanunlarına və dini qaydalarımıza görə, dağ, meşə, dəniz və digər məkanlar şəxsi mülkiyyətə verilə bilməz, yəni xalqa məxsusdur. Amma Azərbaycanda bir para məxluqat var ki, dənizi, meşəni, dağı şəxsi mülkiyyətlərinə çeviriblər. Bu baxımdan, kimsə yayın istisində sərinlənmək üçün dənizə üz tutsa, çomaqla qarşılanacaq. İcazə ilə çimərlikdən bəhrələnmək arzusuna düşsən, pul ödəməli, şərtlər və tələblər yerinə yetirməlisən. Halbuki, başbilənlər hər çimərlik mövsümqabağı bar-bar bağırırlar ki, çimərliklərə giriş pulsuzdur. Ancaq çimərliklərə girişdə baş verən hərc-mərcliyi görəndə, düşünürsən ki, ya bunlar insanlarla məzənirlər, ya da onların özləri çimərlikləri zəbt edənlərlə iş birliyində olduqlarından, baş verənləri görmək və eşitmək istəmirlər. Ola da bilər ki, qərar verən imtiyazlı məmurlar istirahət günlərini Maldiv adalarında, Karlovı Varidə, Soçidə, Bodrumda, Quş adasında və digər dünyanın ən bahalı və göz qamaşdıran istirahət mərkəzlərində keçirdiklərindən, Bakı çimərliklərində hansı hengamələrin törədildiyindən xəbərdsizdirlər. Vəzifəli şəxslər bilmirlərmi ki, Novxanı, Şüvəlan, Mərdəkan, Pirşağı, Qızılqum, Bilgəh, Şıx çimərliklərində qiymətlər tüğyan edir? Görmür və ya eşitmirlərmi nəzarət-filan olmadığından dənizin bir hissəsini zəbt edənlər çimərliyə gələnlərdən 15-80 manat pul tələb edirlər? Qəzetlərdən, saytlardan, sosial şəbəkələrdən oxumurlamı ki, bir çaynik qaynanmamış bozbaş suyuna bənzər çayı insanlara 40-50 manata təklif edirlər. Vay o dəqiqələrə ki, yanında olan körpə uşaq kabab iyini duyduğundan kabab istəyə. İmkansızlığından o məqamda xəcalətdən balaca uşağının və ya nəvənin üzünə baxa bilməyəcəksən.

Bütün bu kimi biabırçı hallara əsasən deyirəm ki, mənə dəniz lazım deyil, heç çimərlik də istəmirəm. Düzdür, Eyyub Yaqubov adlı şou əhlinin bərkgedən mütrübü daley-daleyində iddia edir ki, "mənə dəniz verin, o tənha qalıb". Birincisi, E.Yaqubova anlatmaq lazımdır ki, dəniz heç də tənha, filan deyil. Çünki işbaz məxluqatlar dənizi məngirləyiblər, 24 saat özlərinin qoçu dəstələri ilə dənizi və sahil zolaqlarını nəzarətdə saxlayırlar. İkincisi də, imkansız insanlardan fərqli olaraq sənin kimilər üçün nəinki 40-50 manat, düşünürəm ki, heç iki-üç min manat ödəniş də o qədər maddi sıxıntı yarada bilməz. Qurumlara gəlincə, onlar öz səlahiyyətlərini daha qətiyyətlə və tələbkarlıqla yerinə yetirsə, çimərliklərdə işbazların meydan sulamalarının qarşısı alınar. Necə ki, Buzovna çimərliyinin ətrafında tikilmiş daş hasarlar qısa müddətdə dağıdıldı və ərazi əhalinin istifadəsinə verildi. Dəniz Allahın Azərbaycan xalqına bəxş etdiyi böyük sərvətlərdəndir. Hər kəsin də bu sərvətdən bəhrələnmək haqqı var. Əgər kimsə xalqın haqqına qarşı çıxırsa və dənizin hökmdarı olmaq iddiasına düşürsə, bu dünyada, həm də haqq dünyasında öz lənətini qazanacağı şübhəsizdir.

# Torpaq, uğrunda ölən varsa vətəndir!

*Doğum günündə Vətən müharibəsi şəhidinin xatirəsi anılıb*





Avqust ayının 1-də Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı və təşkilatın əməkdaşı Samir Ağayev II Qarabağ müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canından keçən, Biləsuvar şəhər sakini olan şəhid Xəlilzadə Əmrah İnqilab oğlunun doğum günü münasibəti ilə ailəsini ziyarət ediblər. YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı qeyd edib ki, şəhidlərimiz xalqımızın yaddaşında bizlərə Zəfər tarixi yaşadan əbədi qəhrəmanlar olaraq daim yaşayacaqlar. İllər keçsə də, gələcək nəsillər qəhrəman oğullarımızı hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan oğullarımızı daim qəlbimizdə yaşadaq. Rayon təşkilatının sədri dövlətin şəhid ailələrinə və qazilərə diqqət və qayğıdan bəhs edib. Şəhidin atası İnqilab Xəlilov göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını ifadə edib. Daha sonra YAP Rayon təşkilatının əməkdaşları, Rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Zamiq Mənsimli və SHXÇDX-nın Biləsuvar rayon şöbəsinin rəisi Nağı Cəfərov şəhər qəbirstanlığında şəhidin məzarını ziyarət edərək, ruhuna dualar oxuyublar.

Azərbaycan Ordusunun əsgəri olan Əmrah Xəlilzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Əmrah Xəlilzadə oktyabrın 26-da Füzuli uğrunda döyüşlər zamanı şəhid olub. Noyabrın 29-da Biləsuvar şəhərində dəfn olunub.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Xəlilzadə Əmrah İnqilab oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib. Allah rəhmət eləsin!

***Rəfiqə Kamalqızı***



## Göygöldə şəhid Şirzad Mirzəyevin doğum günündə xatirəsi anılıb




Göygöl rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev,YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, ziyalılar, gənclər və rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsində xüsusi qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucalmış Şirzad Mirzəyevin doğum günü münasibətilə Göygöl rayon Şəhidlər Xiyabanındakı məzarını ziyarət etmişlər.

Ziyarət zamanı Göygöl rayon icra hakimiyyətinin başçısı cənab Elvin Paşayev çıxış edərək Şəhid Şirzad Mirzəyevin döyüş yolundan söhbət açmış, Vətən uğrunda canlarından keçmiş şəhidlərin öz canları və qanları bahasına torpaqlarımızı yağı düşməndən azad edərək qəlblərdə özlərinin əbədi abidələrini ucaltdıqlarını bildirmişdir. Xalqımıza "Qalib xalq" adını bəxş edən şəhidlərin gələcək nəsillərə örnək olmaqla, hər bir insan tərəfindən ehtiramla anıldığını, şəhid ailələrinin ən yüksək diqqətə layiq olmaqla, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daim yüksək dövlət qayğısı ilə əhatə olunduğunu, bütün Azərbaycan xalqının şəhidlərimizlə qürur duyduğunu diqqətə çatdırmışdır. Məktəblilər tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş şeirlər səsləndirilmiş, şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, müqəddəs ruhuna dualar oxunmuşdur.



Sonra YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev şəhidin yaşadığı evə baş çəkərək ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb. YAP Göygöl rayon təşkilatının sədri Vüqar İsayev şəhid ailələrinə göstərilən yüksək dövlət qayğısından danışaraq şəhidlərimizin daim hörmətlə və ehtiramla yad edildiyini söyləmiş, YAP Göygöl rayon təşkilatı tərəfindən hazırlanmış xatirə hədiyyəsi şəhidin ailə üzvünə təqdim olunmuşdur. Söhbət zamanı şəhid ailəsinin üzvləri onlara göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Şəhid Nazir Xurşudovun ailəsi ziyarət edilib





Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının kollektivi Binəqədi rayon ərazisində yaşayan Vətən müharibəsi şəhidi Xurşudov Nazir Müxənnət oğlunun ailəsini ziyarət edərək şəhidimizin övladlarını doğum günü münasibətilə təbrik etmişlər. Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədr müavini Sevinc Abdullayeva qeyd etmişdir ki, şəhidlərimiz xalqımızın yaddaşında bizlərə Zəfər tarixi yaşadan əbədi qəhrəmanlar olaraq daim yaşayacaqlar. İllər keçsə də, gələcək nəsillər qəhrəman oğullarımızı hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan oğullarımızı daim qəlbimizdə yaşadaq. Şəhidimizin həyat yoldaşı dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan bəhs edib. Bunun üçün dövlətimizin başçısına təşəkkürünü bildirib. Eyni zamanda, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının kollektivinə övladlarına göstərilən diqqətə görə minnətdarlıq edib. Azərbaycan Ordusunun kiçik çavuşu olan Nazir Xurşudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatları zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

***Zümrüd BAYRAMOVA***

ARAŞDIRMA+TƏHLİL+TƏKLİF

# Selektiv abortlar qadağan olunmalıdır!



**Belə bir atalar sözümüz var: Qız da, oğlan da övladdır, hər ikisi bir-birindən şirin. Lakin həmişə belə düşünürükmü? Onların hər ikisi əksəriyyətimiz üçün bal şirinliyindədirmi? Xeyr, belə deyil. Əsrlərdir ki, oğlanla qız övladı arasındakı ayrı-seçkilik cəmiyyətimizdə açıqca görünür. Bunun səbəbkarı, əslində isə günahkarı əsasən kişilərdir. Kişilərin həyatda ən böyük arzusu qadınlarının onlara oğlan doğması olur. Oğlan doğulmayanda isə ailədə söz-söhbət yaranır, kişinin dünənədək dərdindən öldüyü, sevdiyi qadın əksər halda onun gözündən düşür, hətta bu səbəbdən boşanmalar da baş verir. Bununla bağlı yüzlərlə fakt söyləmək olar. Nəticə isə göz qarşısındadır. Elə məni bu yazını yazmağa vadar edən də həmin nəticədir.**

## Azərbaycan birinci oldu

İki gün öncə mətbuatda belə bir xəbərlə rastlaşdım: Azərbaycan dünyaya gələn uşaqların cins nisbətinə görə selektiv aborta üstünlük verən dövlətlər arasında birinci yerdədir. Bunu media eksperti Aynur Veysəlova "Azərbaycan mediasında gender həssaslığının artırılması" mövzusunda jurnalistlər üçün keçirilən təlimdə çıxışı zamanı deyib. O qeyd edib ki, 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşür: "Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir".

Ekspert bildirib ki, ötən 55 il ərzində Azərbaycanda nəsilvermə əmsalı xeyli azalıb: "Azərbaycanda son onilliklər ərzində nəsilvermədə baş vermiş tənəzzül və dölün cinsinin müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə, qızlara dəyər vermək lazımdır. Ədalətli cəmiyyət naminə qızlar üçün bərabər imkanlar yaradılmalıdır".

Qeyd edim ki, bu ilin 6 ayı ərzində 60.094 doğum dövlət qeydiyyatına alınıb. Ədliyyə Nazirliyindən verilən məlumata görə, onlardan 32.074-ü oğlan, 28.020-i qız cinsindən olub.

## 90-cı illərdən üzü bəri

Bugünkü bu qorxunc göstərici yuxarıda da qeyd etdiyim kimi, cəmiyyətimizdə oğlan övladına üstünlüyün verilməsi, onun daha çox arzulanmasıdır. Bu arzunu da həyatımıza daxil olan müasir texnologiyalar "çin etdi". USM-lər 90-cı illərədək ailələrimizdə doğulan, hətta "ta bəsti" deyilib Bəsti adı verilən qızlarımıza "bəsti" hökmünü verməyə başladı. O Bəstilər ki, kişi qeyrəti, namusu, zəhmətkeşliyi, ata-ana qədri bilməsi ilə yaddaşlarımıza həkk olunublar. O Bəstilər ki, evlənib həyat yoldaşı ilə uzaq şəhərlərdə yaşamağı seçən oğulların evin altında qalan yaşlı ata-anasının baxıcılarına çevriliblər illərlə. Öz ailələrinin işini bitirib, axşamda-səhərdə ata evinə qaçıb onlara qulluq ediblər. O Bəstilər ki, oğullar ata-ananın cənazəsinə gəlib çıxanadək onların başının üstünü kəsiblər.

Bütün bunları hər birimiz yaşadığımız rayonlarda, şəhər və kəndlərdə qohumlarımız, qonşularımız arasında dəfələrlə müşahidə etmişik. Lakin bütün bunlar eyni zamanda oğlan övladına olan istəyimizi, onlarla qızlarımız arasına qoyduğumuz ayrı-seçkiliyi dəyişə bilməyib. Çünki bizim təfəkkürümüzdə problemlər var. Biz hər zaman düşünmüşük ki, oğul davamçıdır. Maraqlıdır, qız övladı bəs nədir, sonsuzluqdur. Belə çıxır ki, biz qızı övlad hesab etmirik ki, onunda övladını özümüzə davamçı hesab etmirik. Çox təəssüf ki, XXI əsrdə yaşasaq da, hələ də X-XI əsrlərin təfəkkürü ilə yaşamaqda, bunu eynilə qəbil etməkdəyik. Bu səbəbdən də hər bir kişi evində ən azından bir oğlan övladı olmasını istəyir, həm də şiddətli dərəcədə istəyir. Odur ki, buna nail olması üçün də bəzən şiddətli hərəkətlər törədir. Həyat yoldaşına qarşı zorakılıq edir, onunla nikaha son qoyur, yenidən ailə qurur. Lakin onu anlamır ki, övlad payını verən Yaradandır. Alın yazın deyilsə, istəyirsən 3 dəfə evlən-boşan. Bunun da dəfələrlə şahidi olmuşuq.

Bəli, elə ki, USM-lər uşaqların cinsini müəyyən etməyə başladı, bu, kişilərimiz və özünü oğlan doğa bilməməkdə günahkar hesab edən qadınlarımız üçün yaxşı bir fürsət oldu.

## USM-lər həm də ailə planlaması işini görür

Statistikaya nəzər salsaq görərik USM-lər ilk zamanlar ailədə 2-3 qız övladı olub oğlan dünyaya gətirmək istəyən analara xidmət edirdi. Bu yolla minlərlə ailə öz oğlan övladı arzusuna çatırdı. Sonralar isə ultrasəs müayinəsi, sözün əsl mənasında, ailə planlamasına da çevrildi. Belə ki, bu gün Azərbaycanda selektiv abortların gətirdiyi nəticələr üçün tək kişilər deyil, həm də qadınlarımız təqsirkardır. Çünki qadınlar zaman-zaman ultrasəs müayinəsini ailə planlamasına da çevirdilər. Yəni ilk övladı qızdırsa, daha ikincinin qız olmasına yol vermədilər. İkincini oğlan istəməklə həm həyat yoldaşlarının arzularını gerçəkləşdirdilər, həm də artıq övlada gərək olmadığını düşündülər. Beləliklə indi hamımız şahidik ki, əksər ailələrdə iki uşaq var: bir qız, bir oğlan. Bunun gələcəkdə bizi böyük problemlərlə üz-üzə qoyacağından hələlik xəbərimiz olmadığı üçün bu cür də davam etməkdəyik.

Yaşlı bir qadın tanıyırdım, mama-tibb bacısı idi. O deyirdi ki, ailədə iki uşaq tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər. Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq evdə tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Öz qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki iki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasına maraqlı olmur. Lakin qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox, qadınlara bəxş olunan hissdir. Lakin qadınların işlərinin yüngül olması, karyera dalınca getmək, daha çox əziyyət çəkməmək üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırmaları bu kimi problemlər yaradır. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir.

*Ardı Səh. 14*

# Selektiv abortlar qadağan olunmalıdır!

Əvvəli Səh. 13

## Günahkar kişi və ona oğlan doğan xərçəng xəstəsi qadının hekayəsi

"Söz vaxtına çəkər", deyirlər. Elə 90-cı illərdən söz düşmüşkən heç vaxt yadımdan çıxmayan, hər zaman böyük təəssüf hissi ilə xatırladığım bir həyat hekayəsini də qısaca nağıl etmək istəyirəm. 1990-95-ci illər arası idi. Qonşuluğumuzda bir gənc ailə vardı. Bir-birinin ardınca iki qızları dünyaya gəlmişdi. Elə bu ərəfələrdə məlum oldu ki, qadında xərçəng xəstəliyi aşkar edilib. Əri isə oğlan övladı eşqi ilə yaşayırdı. Bu səbəbdən də xərçəng xəstəsi yoldaşına xəyanət etdi. Bir müddət sonra xəbər yayıldı ki, onun başqa bir qadından (nikahdankənar) oğlu dünyaya gəlib. Bu xəbərin onun xəstə həyat yoldaşını necə sarsıtdığını sözlə ifadə etmək o qədər çətindir ki... Xəstə olasan, üstəlik də belə bir xəbər eşidəsən...

Yəqin ki, qadın ailənin artıq uçurumun kənarında olduğunu düşünürdü. Və bunun qarşısını almaq üçün qadın fədakarlığı ilə mübarizə aparırdı. Günlərdən birində eşitdik ki, o, hamilədir. Və dedilər ki, ultrasəs müayinəsindən keçib, uşaq oğlandır. Həkimlər uşağı dünyaya gətirməməsini məsləhət görmüşdülər. Bilə-bilə ki, bu xəstəliklə uşaq dünyaya gətirmək onun üçün həyati təhlükədir, heç kim onu yolundan döndərə bilmədi. Uşağı dünyaya gətirməkdə qərarlı olduğunu bildirdi. Onun 9 aydakı çətinlikləri, yaşadıqları haqqında danışa bilmirəm. Çünki bu, artıq sözün bitdiyi andır.

Hamı qadının günlərin birində öləcəyini, bu yükü sonadək daşıya bilməyəcəyini düşünürdü. Lakin "sən saydığını say, gör fələk nə sayır" misalı uşaq dünyaya gəldi. Bu uşaq xəstə bir qadının ailəsini xilas etmək mücadiləsi idi. Ərinin onu atıb ona oğlan doğan qadına getməsi qorxusundan yaranan hiss idi. Və bir də bu risk üçün çox yaxın zamanda həyata əlvida deməsi idi.

Çox keçmədi, xəstəlik əzrail kimi qadının boğazından yapışdı. Sanki Allah o uşağı dünyaya gətirməsi üçün ona möhlət vermişdi. Qısa bir zamanda 3 körpə övladını və onun ölümündə günahkar olan oğlan istəkli ərini tərk etdi.

Bax, yüzlərlə belə günahkar kişilər var. Bilə-bilə ki, yoldaşı üçün təhlükəlidir, onu oğlan doğmağa vadar edən, 2-3 qızdan sonra onu atıb başqası ilə evlənən, müasir dövrün dəblərindən olan nikahdankənar oğlan sahibi olan qəddar, qadınları ölümə sürükləyən, onların mənəviyyatı ilə oynayan, təhqir edən yüzlərlə kişilər var. Bu təhqirlər tək qadınlarımıza deyil, həm də onların dünyaya gətirdikləri qızlaradır. Çünki ataları onlarla kifayətlənməyib oğul arzulayır, arzusuna çatmayanda qızlarını, onların anasını atır və ya onlara çox pis şəkildə xəyanət edir.

## 7 oğulun bir bacıya möhtac anası

Xalqımızın belə bir deyimi də var ki, Allah hansından verir versin, xeyirli övlad versin. Yəni qız, oğlan olmasından asılı olmayaraq övlad düzgün tərbiyə edildikdə, ona yetərincə məhəbbət göstərildikdə və o bu məhəbbəti dəyərləndirdikdə xeyirli övlad ola bilər. Yoxsa oğlan arzula, o da getsin ən pis yola düşsün və ya layiqli övlad olmasın, onun davam etdirəcəyi nəsildən nə çıxacaqdır. Bu mənada arzulayaraq və heç bəlkə də arzulamadan bir-birinin ardınca 7 oğlu olmuş bir ananın axır aqibətindən də söhbət açmaq yerinə düşərdi.

2000-ci illər olardı. Tanıdığım bir qadın vardı, zəhmətkeş, əlləri qabarlı. Kənddə yaşayırdı. Həyat yoldaşı illər öncə rəhmətə getmişdi. Qadının 7 oğlu, bir qızı vardı. Yəqin zamanında arzulamışdılar ki, 7 oğul istərəm, bircə dənə qız gəlin...

Övladlarını atasız, min bir zəhmətlə böyütmüşdü qadın. Oğlanların hamısı ailə qurub evdən ayrılmışdılar. Hamısı da bir-birinin bəhsinə ki, o evdən ayrıldı, mən də ayrılmalıyam, sərbəst yaşamalıyam. Şəhərdə də yaşayanı vardı, rayon mərkəzində də, hətta kənddə də. Lakin ata qapısı heç də tez-tez açılmırdı, burada tək yaşayan ana ilə çox gec-gec maraqlanan olurdu. Bir qadının kənddə ərdə olan bir qızından savayı. Axşamda-səhərdə bu qız ananı yoluxur, yaşlaşmış qadının bütün ehtiyaclarını yerinə yetirirdi.

Yenə də günlərin birində qızı anasının yanına gəlir, hər işini görür, evinə qayıdır.








Həmin gecə ana dünyasını dəyişir. Qızı bir də səhəri gün axşamçağı gəlir. Qapını açmağa çalışır, qapı açılmır. Anası qapının arxasında dünəndən düşüb qalmış, vəfat etmiş, bədəni şişmişdi.

7 oğlu olan ananın son aqibəti... Qız camaatı çağırır, ona kömək edirlər, ana dəfn olunur. Sonra oğlanların hamısı hadisəni eşidir və kənddə-ata evlərinə gəlirlər.

Hər kəsi sarsıdan bu hadisə uzun illər danışıldı. Elə indi də söz düşəndə həmin 7 oğulun anasının hekayəti acınacaqlı şəkildə xatırlanır.

Yüzlərlə belə hadisələrin şahidi oluruq. Lakin qızla oğlan arasındakı ayrı-seçkiliyə son qoya bilmirik. Çünki təfəkkürümüzdə problemlər var.

## Oğlun yoxdu-sonun yoxdu, dedilər...

Bizdə oğlan övladına verilən üstünlüyün nəticəsidir ki, zaman-zaman dilimizdə hətta oğlanla bağlı deyimlər, atalar sözləri də yaranmışdır. Məsələn, oğul düşmən çəpəridir, oğul nəslin davamçısıdır, oğul evin dirəyidir, oğul ata-ananın baş tacıdır və sair belə onlarla deyimlər, atalar sözləri yaranmışdır. Ən dəhşətlisi isə budur ki, ailələrimizdə oğlan doğulmayanda sanki o nəslin, kökün davamının olmadığını düşünürük. Aşağıdakı misralar böyük şairimiz Məmməd Araza da vaxtilə oğlu olmadığı üçün sonsuz deyənlərə qarşı tək şairin düşüncələri deyil, bu düşüncə tərzində olan cəmiyyətə bir giley, bir təəssüf hissi idi.

Oğlun yoxdu - sonun yoxdu, dedilər,
Sağın yoxdu, solun yoxdu, dedilər,
Odun boyda suyun yoxdu, dedilər,
Bu da belə bir ömürdü, yaşadım.

Bir oğlu olmayan qadın və ya kişi rəhmətə gedəndə də yaxınları onu "oğulsuz canına mən qurban olaram" deyib ağlayırlar. Və yaxud da Yaradana asi düşərək, "Allah, nə deyim sənə, buna da bir şirin pay verərdin də", - deyirlər.

Onu da çox böyük təəssüf hissi ilə vurğulamaq istəyirəm ki, bizdə oğlan uşağına, şirin pay, deyirlər. Mən bunu əvvəlki yazılarımda, hətta felyetonlarımda da dəfələrlə vurğulamışam. Bəs görəsən qızlar necə, acı paydırlar?..

## Selektiv abortlar qadağan olunmalıdır

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, buz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır.

Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək.

Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində təbilin çalınmasının vaxtının çatdığını göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Çünki kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Düşünürəm ki, bütün həkimlər, mütəxəssislər bu çağırışımıza səs verər, selektiv abortlar qadağan edilər. Son olaraq onu demək istəyirəm ki, bizim Bəstilər, Yetərlər, Qızbəstilər başımızı heç vaxt aşağı etməyiblər. Qoy onların davamçıları olan qızlarımız doğulsun...

**_Mətanət MƏMMƏDOVA_**



# Stanislav Tarasov: "Qarabağda status-kvonu dəyişmək mümkün deyil, əsas oyun artıq oynanılıb"

**REGNUM informasiya agentliyinin Şərq nəşrinin baş redaktoru, rusiyalı politoloq Stanislav Tarasov Caliber analitik mərkəzinə müsahibəsində regionumuzda gedən proseslərlə bağlı maraqlı məqamlara toxunub.**

***- Stanislav Nikolayeviç, İrəvanda rus məktəblərinin bağlanması, rus dilinə məhəl qoyulmaması və s. tələbi ilə mütəmadi olaraq Rusiya əleyhinə demarşlar keçirilir. Bunu müdafiə edənlər bu yolla nəyə nail olurlar?***

- Ermənistanda son vaxtlar güclənən anti-Rusiya əhval-ruhiyyəsi ən azı ona görə çaşqınlıq yaradır ki, Moskva heç vaxt orada rus dilini əkməyib. Ukrayna təcrübəsi göstərdi ki, biz rus dilini heç bir yerdə zorla tətbiq etməyəcəyik. Şəxsən mən vaxtilə Kabildə işləmişəm və yaxşı xatırlayıram ki, əhalinin böyük əksəriyyəti rus dilində danışırdı. Yəni, rus dili faydalı idi. Eyni şeyi Türkiyədə də müşahidə etdim, burada yenə də rus dili bu günə qədər ən yüksək prioritetlərdən biri olaraq qalır. Rus dilini bilmək o qədər də prestijli deyil, daha çox qazanclı olur: rus dilini bilən türklər üçün bu, ancaq iş axtaranda və ya təhsil alanda fayda verir. Ona görə də mənə aydın deyil ki, niyə Ermənistanda əks vəziyyət müşahidə olunur, bəzi anti-Rusiya hücumlarına yol verilir.

***- Sizcə, bu proseslərin arxasında hansısa revanşist qüvvələr dayanır?***

- İndi hansısa revanşist qüvvələrdən danışmağı düzgün hesab etmirəm. Hətta hipotetik olaraq Ermənistanda hakimiyyət dəyişikliyini fərz etsək belə, bu halda belə orada heç kim revanşa əl atmayacaq. Qarabağda status-kvonu dəyişmək mümkün deyil, əsas oyun artıq oynanılıb. Ermənilər 2-ci Qarabağ müharibəsində tam məğlubiyyətə uğradılar. Ona görə də indi biz təkcə Ermənistanın deyil, bütün regionun, xüsusən də geosiyasi yenidən bölüşdürmənin getdiyi indiki dövrdə gələcəyini düşünməliyik. Ukrayna təcrübəsi göstərdi ki, hətta Yaxın Şərq kimi qeyri-sabit regionda da çox şey dəyişə bilər.

***- Necə düşünürsünüz, Ermənistanın gələcəyi Rusiya ilədir, yoxsa Qərblə?***

- Bu sualı mən özüm Paşinyana verərdim. Biz özümüz bunu başa düşə bilmirik. Bəli, Ermənistan KTMT-nin, Aİ-nin üzvüdür, amma bununla belə, Qərblə münasibətləri kəsmir. Bu mənada mən dəfələrlə Bakının siyasətini misal çəkmişəm. Azərbaycanın KTMT-nin, Aİ-nin üzvü olmamasına baxmayaraq, İkinci Qarabağ müharibəsinə hazırlıq dövründə Əliyev Rusiya və Türkiyə resurslarından öz dövlətinin maraqları üçün parlaq şəkildə istifadə edib. Bunu etiraf etmək lazımdır. Baxmayaraq ki, əvvəllər onun siyasətinə şübhə ilə yanaşırdım, amma indi onun qarşısında papağımı götürürəm. Bu birincisi.

İkincisi, KTMT-nin, Avrasiya İqtisadi Birliyinin üzvü olan Ermənistan isə bu resurslardan öz milli maraqlarına uyğun istifadə edə bilmədi, hətta bəzi hallarda müttəfiqinin maraqlarını da satdı. Bu, ən azı çaşqınlığa səbəb olur. Ermənilərin kiminlə dostluq etmək və harada olmaq istədiklərinə qərar vermə vaxtıdır.

***- Ola bilsin ki, Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Bernsin Ermənistana son səfəri zamanı bu məsələ də müzakirə olunub...***

- Bu da sualdır. MKİ direktoru heç vaxt heç yerə getmir. Təbii ki, səfərin konkret məqsədi var idi, amma mətbuatda bu barədə reklam olunmadı. Hesab edirəm ki, Burnsun səfəri daha çox Türkiyə-Ermənistan münasibətləri ilə bağlı idi. Amerikalılar Türkiyə-Ermənistan münasibətlərini ayrı bir spektrə gətirmək istəyirlər. İndi Türkiyə və Azərbaycan Ermənistana münasibətdə vahid blok kimi çıxış edirlər. Ona görə də ABŞ-ın vəzifəsi onları müxtəlif istiqamətlərdə ayırmaqdır. Yəni Ermənistanla Türkiyə ayrı oyundur, Ermənistanla Azərbaycan isə ayrı oyundur. Bu, hər tərəfdən manevr etməyə imkan verir. Bu birincisi.



İkincisi, amerikalılarda şübhə var ki, Moskva, Bakı və Ankara arasında ittifaq yaradılır və bu, təbii ki, onlara yaraşmır.

***- Putinlə Ərdoğanın Soçi görüşü Vaşinqtonun şübhələrini daha da artırırmı?***

- Şübhəsiz ki. Hesab edirəm ki, bu yaxınlarda Tehranda 3 regional gücün- Rusiya, Türkiyə və İranın iştirakı ilə keçirilən sammit artıq Vaşinqtonun narahatlığına əsas verib. Mənə elə gəlir ki, Tehranda keçirilən sonuncu sammitdə bir çox məsələ daha ətraflı müzakirə olunub və ola bilsin ki, üç ölkə artıq Suriya böhranı ilə bağlı razılığa gəlib. İndiyə qədər bu, yəqin ki, Türkiyənin Yaxın Şərqdəki planlarına görə səsləndirilməyib. Moskva və Tehran Türkiyənin Suriyada yeni müharibəsinin əleyhinədir və hesab edir ki, bu məsələ diplomatik üsullarla həll olunmalıdır. Və məncə, tərəflər Əsədlə Ərdoğanı barışdırsa, Suriya problemi həll oluna bilər. Bu birincisi.

İkincisi, Tehranda keçirilən sammitin sonunda əldə olunan taxıl sazişi ilə bağlıdır. İndi məlum olur ki, Ukraynanın dediyi taxıl həcmləri (20-25 milyon ton) yoxdur. Ona görə də bu məsələ ətrafında çoxlu anlaşılmazlıqlar var. Hətta Misir ərəfəsində Ukrayna ilə müqaviləni pozdu, çünki məlum oldu ki, taxıl yoxdur. Bu mövzu ətrafında hansısa siyasi oyunlar olduğundan şübhələnirəm.

***- Belə çıxır ki, Rusiya dünya bazarlarına əsas taxıl tədarükçüsünə çevrilir?***

- Obyektiv olaraq, bəli. 20-25 milyon ton həcmində elan edilmiş Ukrayna taxıl ehtiyatları dünya həcminin cəmi 5-6 faizini təşkil edir. Ona görə də Ukrayna taxılı olmadan dünya qıtlığının olacağı ilə bağlı isteriya tamamilə cəfəngiyyatdır.

***- Nəhayət, Rusiya-Türkiyə münasibətlərinin gələcəyi haqqında- bunu necə görürsünüz?***

- Qulaq as, hansı gələcək haqqında danışırıq?! Bizim axı böyük əlaqələrimiz və eyni dərəcədə gözəl gələcəyimiz var.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## "İlin sonuna qədər müharibənin davam edəcəyi gözlənilir"



"Rusiya-Ukrayna müharibəsi əslində daha çox ABŞ-ın maraqlarına uyğundur. Rusiya özü də bilmədən çox böyük bir bataqlığa girib. Çünki ABŞ-ın əsas məqsədi Ukrayna cəbhəsi açmaqla Rusiyanın başını qatmaq, həmçinin Rusiya-Ukrayna müharibəsini Avropa İttifaqının zəifləməsinə qarşı istifadə etməkdir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev bildirib.

Onun sözlərinə görə, ABŞ istədiyinə nail oldu. İngiltərə ABŞ-ın planını bildiyi üçün Avropa İttifaqından ayrıldı: "ABŞ-ın məqsədi dollarının dəyərinin avronun dəyərinə bərabər olması idi. ABŞ artıq ona nail oldu. Bu 5 ay ərzində avro öz dəyərini itirdi və onun dəyərini itirməsi prosesi davam edəcək. Avropa İttifaqının iqtisadi lokomotivi Almaniyadır. ABŞ böyük siyasi oyun hazırlayıb və Rusiyanı bu oyuna daxil edib.

Xatırlayırsınızsa, ABŞ-ın müdafiə naziri qeyd edib ki, Rusiya Ukraynada etdiklərinin bədəlini ödəyir. Ukraynanın dağılması, parçalanması ABŞ-ın marağında deyil. Onlar Zelenskinin təcrübəsizliyindən istifadə edir. ABŞ dünya arxitekturasında öz yerini və rolunu artırmaqdan ötrü Ukrayna kartından istifadə elədi. Ona görə də bu müharibə hələ davam edəcək. ABŞ Rusiyanı zəiflətmək üçün 2-ci, 3-cü cəbhəni də açacaq. Ayrı-ayrı dövlətlərin öz maraqları var. Ukraynanın əsas problemi taxıl məsələsi idi. Amma indi taxılın daşınmasında bir çox ölkələr Ukraynaya yardım edir. İndiki şəraitdə müharibənin hələ də davam etməsi bütün tərəfləri qane edir. İlin sonuna qədər müharibənin davam edəcəyi gözlənilir. Bu müharibə üzücü və yorucu bir müharibədir".

***Abutel İlhamqızı***

## Dünya Rusiyadan imtina edir?

*İQTİSADÇI AÇIQLADI*

"Dünyanın Rusiyadan imtina etməsi mümkün deyil". Bunu SİA-ya açıqlamasında iqtisadçı Xalid Kərimli deyib. İqtisadçı qeyd edib ki, Rusiya ərazisi dünyanın 11,5 faizini əhatə edir: "Planetin 149 milyon kv km-nin 17,1 milyonu rəsmi olaraq Rusiyanındır. Lakin faktiki olaraq özünün kontrolunda olan ərazilər bundan daha çoxdur. Rusiya nəzarət altında saxladığı yerlərlə birgə dünyanın əhəmiyyətli hissəsini təşkil edir. BMT tərəfindən rəsmi təsdiq edilmiş ərazisi 17,1milyon kv kilometrdir. Rusiyanı xəritədən silmək mümkün deyil. Rusiya qaz ixracına görə dünyada birinci, neft ixracına görə isə dünyada ikinci yerdədir. Rusiya bir çox ərzaq məhsullarının, metalın tədarükü üzrə dünyada lider ölkələrdəndir".

İqtisadçı Xalid Kərimli qeyd edib ki, dünya sənayesi, istehsalı və ərzaq təhlükəsizliyi Rusiyadan asılı vəziyyətdədir: "Rusiya isə dünyanı bununla imtahana çəkmək istəmir. Təbii ki, Ukrayna ilə müharibə dönəmində olduğu üçün Rusiyanın bir sıra ölkələrlə əlaqəsi pisləşib. Alıcıların yeri dəyişsə belə, Rusiyanın dünya iqtisadiyyatından çıxması mümkün deyil. Nəzərə alaq ki, əmtəə satışında bir çox ölkələrdən daha öndədir. Dünyada ticarət münasibətləri dəyişsə də, başqa cür dizayn olunsa da, Rusiyanın dünya iqtisadiyyatında rolu dəyişməz qalacaq. Rusiya iqtisadiyyat əlaqələri Avropa ilə azalsa da, Asiya ilə daha möhkəmlənməsi gözlənilir. Rusiyanın nə enerji, nə də əmtəə bazarında sıxışdırılması mümkün olmayacaq. Rusiyaya aparılan sanksiyalar bizim də bazara təsirsiz ötüşmür. Bazarda bahalaşma müşahidə olunmasının səbəbi məhz budur. Avropa Rusiya ilə əlaqələri məhdudlaşdıra bilər. Lakin tamamilə kəsməsi mümkün görünmür. Çünki Avropa qaz təchizatında 10 il müddətində Rusiyadan asılı olacaq. Rusiya və Avropa münaqişəsi davam etməsə düşünürəm ki, Rusiyaya tətbiq edilən sanksiyalarda da yumşalma müşahidə edəcəyik. Amma təbii ki, bu, bir tərəfdən də ABŞ və Çin münasibətlərindən asılı olacaq".

***Qönçə Quliyeva***

# Bundesliqanın

## ən yaxşısı bu futbolçu seçildi



Futbol üzrə Almaniya Bundesliqasında 2021/22 mövsümünün ən yaxşı futbolçusu adına aydınlıq gəlib. Qol.az xəbər verir ki, "Kicker" nəşri tərəfindən keçirilən və Almaniya İdman Jurnalistləri Dərnəyinin üzvü olan 698 jurnalistin iştirak etdiyi sorğunun nəticələrinə əsasən, qalib "Leyptsiq"in hücumçusu Kristofer Nkunku olub. O, 158 səs toplayıb. Bir neçə gün əvvəl "Bavariya"da "Barselona"ya forvard keçən Robert Levandovski 2-ci (138 səs), "Ayntraxt"dan qapıçı Kevin Trapp isə 3-cü (65 səs) olub.

Qeyd edək ki, Nkunku ötən mövsüm Bundesliqada 34 oyunda 20 qol vurub və 15 qolun ötürməsini verib.

# ALİMLƏR AÇIQLADI:

## Alkoqol qocalmanı sürətləndirir!

**Alimlər yeni araşdırma zamanı alkoqol istehlakı ilə telomerlərin qısalması arasında güclü əlaqə aşkar ediblər. "Hi-Tech" nəşri yazır ki, alimlər Britaniya biobankının 245 mindən çox iştirakçısında telomerlərin uzunluğunu araşdırıblar. Müəyyən edilib ki, alkoqol qocalmanı sürətləndirir və Altsheymer xəstəliyi kimi yaşla əlaqəli ciddi xəstəliklərə səbəb olur.**

Əvvəlki araşdırmalar göstərib ki, alkoqol 40 yaşdan aşağı insanlar üçün xüsusilə zərərlidir və yeniyetmələrdə və gənclərdə inkişaf etməkdə olan beynin böyümə tempini ləngidə bilər.



Lakin, bütün bu tədqiqatlar spirtin həqiqətən bu təsirlərə görə məsuliyyət daşıdığını və ya sosial-iqtisadi status kimi müvafiq amillərin günahkar olub-olmadığını göstərməyib. Yeni genetik analiz problemi həll edir.

"Oxford Population Health" tədqiqatçıları yeni genetik analizin nəticələrini təqdim ediblər. Qurumun press-relizində deyilir ki, onlar alkoqolun telomerlərdəki DNT-ni zədələməklə qocalmanı birbaşa sürətləndirdiyini ehtimal edirlər.

"Bu nəticələr, alkoqolun, xüsusilə də həddindən artıq miqdarlarda, telomerlərin uzunluğuna birbaşa təsir etdiyi ehtimalı təsdiq edir. Qısaldılmış telomerləri Altsheymer xəstəliyi kimi bir sıra ağır yaşa bağlı xəstəliklər üçün risk faktoru qismində təklif ediblər. Bizim nəticələrimiz həkimlər və xəstələr üçün faydalı olacaq. Bundan başqa, alkoqolun dozası vacibdir - hətta alkoqolun qəbulunun azalması belə faydalı ola bilər", - deyə tədqiqatın rəhbəri, "Oxford Population Health"dan olan doktor Anya Topivala qeyd edib.

Bundan əvvəl alimlər telomerlərin qısaldılması və telomeraza aktivliyinin, məsələn, xərçəng və ürək-damar xəstəliklərinin inkişafı, eləcə də immunitetin azalması ilə əlaqəli olduğunu müəyyən etmişdilər. Hesab edilir ki, insanın bioloji yaşını onun telomerlərinin uzunluğu ilə müəyyən etmək olar.

# Yol qəzaları yenə can aldı:

## 2 nəfər öldü



Bakıda avtomobillər piyadaları vuraraq öldürüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, hadisə iyulun 29-u saat 21 radələrində Xətai rayonunun Zığ yolunda qeydə alınıb.

Belə ki, paytaxt sakini Y.Quliyev idarə etdiyi "Ford" markalı avtomobillə yolu keçən paytaxt sakini Telman Dünyamalıyevi vurub. Nəticədə xəstəxanaya yerləşdirilən piyada iyulun 30-da orada ölüb.

Bundan başqa, iyulun 30-u saat 21 radələrində Qaradağ rayonunun Sahil qəsəbəsi ərazisində Qax rayon sakini O.İmamov idarə etdiyi "Kia" markalı avtomobillə yolu keçən Umbakı qəsəbə sakini Kərim Alcanovu vurub və nəticədə piyada hadisə yerində ölüb. Hər iki faktla bağlı araşdırma aparılır.

# DİQQƏT:

## Ac qarına hansı qidaları qəbul etmək olmaz



**"Ac qarına rəngli və qazlı içkiləri içmək olmaz. Çünki həmin içkilərin tərkibində qaz olduğuna görə, mədə-bağırsaq sisteminə zərərlidir". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov deyib.**

Onun sözlərinə görə, amma saf suyu ac qarına qəbul etmək faydalıdır: "Çünki onun tərkibindəki mikroelementlər insan orqanizminə faydaları çoxdur. Qidalardan isə ümumiyyətlə qızardılmış yeməkləri ac qarına sağlam adam belə qəbul etsə, onun mədə-bağırsaq sisteminə zərərləri ola bilər. Ona görə də, insanlar acdıqda pörtdənmiş, az qızardılmış qidaları istehlak edə bilərlər. Çünki tam qızardılmış, dərin yağda bişən məhsullar birbaşa mədə-bağırsaq sistemini pozur və gələcəkdə mədə və ya bağırsaq xərçənginin yaranmasına səbəb ola bilər. İnsan acıdqda 100-150 qram şorba içərək mədəsini yumşaltmalı və daha sonra isə yeməyə davam etməlidir. İnsanlar nə qədər qızardılmış məhsullardan uzaq dursa, bir o qədər yaxşıdır".

***Arzu Qurbanlı***



## *11 qat NBA çempionu ölüb*

ABŞ-ın Milli Basketbol Assosiasiyasın (NBA) 11 dəfə çempionu olmuş basketbolçu Bill Rassel 88 yaşında vəfat edib. Bu barədə Rasselin rəsmi tviter səhifəsində bildirilib.

Paylaşımda qeyd edilib: "Bill Russell bu gün 88 yaşında bu dünyanı tərk edib. Vida mərasiminin elanı daha sonra veriləcək".

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**